AZƏRBAYCAN RESPUBLİKASI
ODLAR YURDU UNİVERSİTETİ

# "DAYANIQLI İQTİSADİ İNKİŞAFI TƏMİN EDƏN ƏSAS İSTİQAMƏTLƏR"

**mövzusunda elmi-praktiki**

**KONFRANSIN MATERİALLARI**

**(06 may 2025-ci il)**

**Bakı – 2025**

**AZƏRBAYCAN RESPUBLİKASI**

**ODLAR YURDU UNİVERSİTETİ**

https://doi.org/10.36719/0801/2025

# “DAYANIQLI İQTİSADİ İNKİŞAFI TƏMİN EDƏN ƏSAS İSTİQAMƏTLƏR”

**mövzusunda elmi-praktiki**

**KONFRANSIN MATERİALLARI**

**(06 may 2025-ci il)**

**Bakı – 2025**

## TƏŞKİLAT KOMİTƏSİ

Natiq Qarayev – iqtisad üzrə fəlsəfə doktoru, Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının dosenti – Sədr

Əfqan Musayev – iqtisad üzrə fəlsəfə doktoru, Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının baş müəllimi – Sədr müavini

Sevinc İbrahimova – Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının dosenti – Üzv

Mayıl Orucov – Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının baş müəllimi – Üzv

Hafizə Əliyeva – Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının baş müəllimi – Üzv

Xavər Əliyeva – Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının müəllimi – Üzv

Solmaz Məmmədova – Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının müəllimi – Üzv

Sevinc Məmmədova – Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının müəllimi – Üzv

## ELM KOMİTƏSİ

Əli Əlirzayev – iqtisad üzrə elmlər doktoru, professor, Odlar Yurdu Universitetinin "İqtisadiyyat və idarəetmə" fakültəsinin dekanı – Sədr

Elşad Məmmədov – iqtisad üzrə elmlər doktoru, professor, Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının müdiri – Sədr müavini

Yelena Veduta – iqtisad üzrə elmlər doktoru, professor, M.V. Lomonosov adına Moskva Dövlət Universiteti "Strateji planlaşdırma və iqtisadi siyasət" kafedrasının müdiri

İnna Andronova – iqtisad üzrə elmlər doktoru, professor, P. Lumumba adına Rusiya Xalqlar Dostluğu Universitetinin "Beynəlxalq iqtisadi münasibətlər" kafedrasının müdiri

Nizami Musayev – texnika elmləri namizədi, Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının dosenti – Üzv

Sevda Məmmədova – iqtisad üzrə fəlsəfə doktoru, Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının dosenti – Üzv

Nərgiz Xalıqova – iqtisad üzrə fəlsəfə doktoru, Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının müəllimi – Üzv

Mehriban Səmədova – iqtisad üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Tətbiqi iqtisadiyyat" kafedrasının dosenti – Üzv

Elmira Qocayeva – iqtisad üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Tətbiqi iqtisadiyyat" kafedrasının dosenti – Üzv

Esmira Əhmədova – iqtisad üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Tətbiqi iqtisadiyyat" kafedrasının müəllimi – Üzv

## KATİBLİK

Babək Feyzullayev – Odlar Yurdu Universitetinin "İqtisadiyyat və idarəetmə" fakültəsinin dekan müavini

Aslan Əzimzadə – Odlar Yurdu Universitetinin "Karyera və məzunlarla iş (ALUMNI)" departamentinin rəhbəri

Ayşən Vəlibəyli – Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının müəllimi

Aysel Əliyeva – Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının müəllimi

Nigar İbrahimova – Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının müəllimi

UOT № 33

# XARİCİ İQTİSADİ SİYASƏTİN TƏHLİLİNƏ KONSEPTUAL BAXIŞ

**A.A. Hüseynxanov, H.R. İmanzadə, X.X. Əsədullayeva**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov küçəsi 13

e-mail: araz7708@gmail.com , hicraniman8@gmail.com

***Açar sözlər:*** ticarət, proteksionizm, investisiya, xarici iqtisadi siyasət

***Keywords:*** trade, protectionism, investment, foreign economic policy

***Ключевые слова:*** торговля, протекционизм, инвестиции, внешнеэкономическая политика.

A.A.Kuklin, A.Y.Sudakova və A.S.Naydenov görə xarici iqtisadi siyasət dövlətin qoruyucu yəni proteksionist siyasət ilə liberal ticarət siyasəti arasında edəcəyi seçimdir. Bu tərif də təbii ki, xarici iqtisadi siyasətin başlıca tiplərini proteksionizm və azad ticarət olaraq göstərməkdədir [1].

Lakin onu da qeyd etmək lazımdır ki, alimlərin bu barədə fikirləri müəyyən mənada müxtəlif ola bilir. A.Oleynov proteksionist və azad ticarəti başlıca xarici iqtisadi strategiya olaraq adlandırır. İ.Çütçü və M.Yaşar, fikirlərinə görə isə bu iki tip xarici iqtisadi siyasətdən daha çox onun əsas istiqamətlərindən biri olan xarici ticarətin başlıca formalarıdır [2], [3].

Bizim fikrimizcə hər bir yanaşmada həqiqət payı vardır. Belə ki, bu siyasətlər xarici ticarət ilə xarici ticarət də xarici iqtisadi siyasət ilə bağlı olduğu üçün biz bu formaları xarici iqtisadi siyasətin başlıca tipləri kimi götürə bilərik. Hər iki tipi təhlil edəndən sonra Azərbaycanda bu xarici iqtisadi siyasət formalarından hansının tətbiq edildiyi və sözügedən istiqamətdə nə işlər görüldüyünü analiz edək. İlk öncə proteksionist siyasətin nə olmasını tədqiq edək.

Proteksionist siyasət ilə bağlı demək olar ki, alimlərin fikirləri bütövlükdə üst-üstə düşməkdədir. İlk proteksionist siyasəti iqtisad elminin ilk məktəbi saya bildiyimiz merkantilizm məktəbində formalaşmışdır. Merkantilistlərə görə ölkə iqtisadiyyatının inkişafı üçün ölkədə qızıl sikkələrin artırılmasına yönələn xarici iqtisadi siyasət aparılmalıdır. Bunun üçün merkantilistlərin təklif etdiyi iqtisadi strategiya idxalı məhdudlaşdırmaqdır. Çünkü belə olan halda ölkədən daha az qızıl sikkə xaricə çıxacaqdır. Eyni zamanda bu strategiya daxili istehsalı stimullaşdıracaqdır ki, bu da nəticə etibarilə ixracın həcmini artıracaqdır. İxracın artımı isə ölkəyə daha çox qızıl sikkə gətirəcəkdir [4].

Y.Ratçinin fikrinə əsasən proteksionist siyasət milli iqtisadiyyatının stimullaşdırılmasına yönəlmiş dövlət siyasətidir. Y.Ratçinin fikrinə görə proteksionizm siyasətinin ilk olaraq merkantilistlər dönəmində xarici ticarət kontekstində mövcud olmasının əsas səbəbi bu siyasətin meydana gəlməsinin ilk dönəmlərində hələ digər iqtisadi sektorların o cümlədən sənayenin tam olaraq təşəkkül etməməsi idi [5].

D.V.Kuvşinov və E.L.Vlasova da Y.Ratçinin tərifinə yaxın tərifdən istifadə etmişlərdir. Belə ki, D.V.Kuvşinov və E.L.Vlasovaya görə proteksionist siyasət yerli istehsalçıların xarici mallardan qorunması prosesidir. Tədqiqatçıların fikrincə bu siyasət zamanı idxalatçılara müəyyən gömrük rüsumlarının tətbiq edilməsi dövlət büdcəsinin zənginləşməsinə öz müsbət təsirini göstərməkdədir [6].

D.V.Kuvşinov və E.L.Vlasova proteksionist siyasətinin müəyyən spesifik xüsusiyyətlərini öz tədqiqatlarında qeyd etmişlərdir. Bu xüsusiyyətlər aşağıdakılardır:

- İdxala məhdudiyyətlərin tətbiq edilməsi ölkənin ticarət balansınıda stabilizator effekti ilə nəticələnir;
- Milli istehsalı onun üçün məhvedici olan dempinqdən, o cümlədən öz məhsullarını yerli bazarda formalaşan “ədalətsiz” rəqabətdən qoruya bilir;
- Bu siyasət iqtisadiyyatın yeni, formalaşmaqda olan sektorlarının inkişafının səciyyələndirir və onların inkişaf yolunda yarana biləcək müəyyən mənfi xarici təsirləri zərərsizləşdirir;
- İdxal məhsullarına qoyulan iqtisadi baryerlər yerli istehsalı stimullaşdırır. Nəticədə isə ölkədə istehsal və məşğulluq göstəriciləri artır, işsizlik azalır, eyni zamanda ölkədə dünya iqtisadiyyatında baş verəcək müəyyən böhranlara qarşı immun sistemi formalaşır.[6].

A.V.Melnikov və digərlərinə görə proteksionizm siyasətinin başlıca formaları əsas ölkənin tərəfdaşları ilə olan münasibətindən asılıdır. Əgər əsas ölkə tərədaşları ilə hər hansısa bir razılıq əldə etmədən bu siyasəti həyata keçirirsə bu birtərəfli proteksionizm siyasəti, digər tərəfdən əgər əsas ölkə tərədaşları ilə bu siyasəti həyata keçirdiyi zaman müəyyən razılıqlar çərçivəsində hərəkət edirsə bu ikitərəfli proteksionist siyasətdir. Eyni zamanda çox tərəfli proteksionist siyasət də vardır ki, burada da bir neçə ölkə ilə bərabər şəkildə sözügedən xarici iqtisadi siyasətin planın formalaşdırılmasından söhbət gedir [7].

Məhz bu xarici iqtisadi siyasət uzun illər boyunca merkantilizm iqtisadi məktəbinin ana xəttini təşkil etmişdir. Lakin sonrakı dövrlərdə ölkələrin iqtisadi inkişaflarını dayanıqlı səviyyəyə gətirmək məqsədilə qarşılıqlı ticarətlərinin labüdlüyü və qloballaşmanın ilkin meyllərinin formalaşması nəticəsində Şotlandiyalı iqtisadçı və əxlaq filosofu, iqtisad elminin klassik məktəbinin banisi Adam Smitin ortaya qoyduğu azad ticarət və liberal iqtisadiyyat anlayışları eyni zamanda dövlətin bazar mexanizminə müdaxilə etməməsi hipotezləri merkantilizm məktəbinin başlıca ideyalarına ciddi zərbə vurdu [8].

**Ədəbiyyat:**


1. Куклин, А. А., Судакова, А. Е., & Найденов, А. С. (2013). Влияние основных концепций внешнеэкономической политики на потребительский рынок. *Национальные интересы: приоритеты и безопасность*, (36), 19-30.
2. Олейнов, А. Г. (2016). Внешнеэкономическая политика стран мира: теория и методология анализа. *Мировое и национальное хозяйство.–2016*.
3. Çütcü, İ., & Yaşar, M. (2019). Ekonomik büyüme ile dış ticaret politikaları arasındaki ilişki: yapısal kırılmalı testlerle ekonometrik bir analiz. *Atatürk Üniversitesi İktisadi ve İdari Bilimler Dergisi*, *33*(1), 265-282.
4. Eğilmez, M. (2022). Makro Ekonomi, Türkiye’den Örneklerle, Remzi Kitap Evi, 6. *Baskı, İstanbul*.
5. Ратчин, Я. А. (2023). ПРОТЕКЦИОНИЗМ КАК ФЕНОМЕН ЭКОНОМИЧЕСКОЙ ТЕОРИИ И ПРАКТИКИ. *Постсоветский материк*, (1 (37)), 128-146.
6. Кувшинов, Д. В., & Власова, Е. Л. (2022). ПРОТЕКЦИОНИЗМ ИЛИ ФРИТРЕДЕРСТВО НА МЕЖДУНАРОДНОМ РЫНКЕ. *Вестник науки*, *3*(12 (57)), 90-95
7. Мировая экономика и международные экономические отношения (в схемах и таблицах): учебное пособие / А.Б. Мельников [и др.]. – Краснодар: КубГАУ, 2013. – 240 с.

8. Гладков, И. С., & Дубовик, М. В. (2019). Противостояние протекционизма и фритредерства в международной торговле. *Журнал экономических исследований*, *5*(2), 65-70.

## A CONCEPTUAL APPROACH TO FOREIGN ECONOMIC POLICY ANALYSIS

**A.A. Huseynkhanov, H.R. Imanzadeh, K.K. Asadullayeva**

**SUMMARY**

Ensuring the effectiveness of foreign economic policy is one of the factors supporting the preventive development of the national economy. However, today there are different views on the theoretical foundations of foreign economic policy. The research work is aimed at analyzing different views. The research work used research methods such as logical generalization, induction and deduction. The research work can serve as a theoretical basis for researchers who want to analyze foreign economic policy in the future.

## КОНЦЕПТУАЛЬНЫЙ ПОДХОД К АНАЛИЗУ ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ

**А.А. Гусейнханов, Х.Р. Иманзаде, Х.Х. Асадуллаева**

**РЕЗЮМЕ**

Обеспечение эффективности внешнеэкономической политики является одним из факторов, способствующих поступательному развитию национальной экономики. Однако сегодня существуют различные взгляды на теоретические основы внешнеэкономической политики. Научно-исследовательская работа направлена на анализ различных идей. В исследовании использовались такие методы исследования, как логическое обобщение, индукция и дедукция. Научная работа может послужить теоретической основой для исследователей, желающих в будущем анализировать внешнеэкономическую политику.

UOT № 33

# RƏQƏMSALLAŞMA MÜƏSSİSƏNİN DAVAMLI İNKİŞAF AMİLİ KİMİ

**A.İ. İsgəndərova, C.R. Hacıyev, A.T. İsmayılova**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov küçəsi 13

e-mail: aynuraisgandarova@gmail.com , hcavid386@gmail.com , aysel.ismayilova324@gmail.com

***Açar sözlər:*** rəqəmsal iqtisadiyyat, rəqəmsal texnologiyalar, davamlılıq, davamlı inkişaf, kiçik biznes

***Keywords:*** digital economy, digital technologies, sustainability, sustainable development, small business

***Ключевые слова:*** цифровая экономика, цифровые технологии, устойчивость, устойчивое развитие, малый бизнес

Bu gün yeni texnoloji quruluş formalaşmaqdadır [4]. Məhz bu çərçicədə rəqəmsal transformasiya müasir müəssisələr üçün vacibdir. İnformasiya kommunikasiya texnologiyalarından istifadə innovativləşmənin əsasını təşkil etməkdədir [3]. Bu alətlər dəsti müxtəlif proseslərin səmərəli həyata keçirilməsini optimallaşdıran və asanlaşdıran zəruri texnologiyaların tətbiqi məqsədilə müəssisənin fəaliyyətinin davamlı monitorinqini nəzərdə tutur. Rəqəmsal texnologiyaların istifadəsi ilkin olaraq xərclərin azaldılması, məhsulun keyfiyyətinin artırılması, istehsal müddətlərinin azaldılması və təchizat zəncirlərinin optimallaşdırılması yolu ilə mövcud biznes modellərinin və proseslərin səmərəliliyinin artırılması yolu kimi nəzərdən keçirilirdi. İqtisadiyyatda baş verən dəyişikliklər rəqəmsal transformasiya yolundan keçərək klassik müəssisədən mürəkkəb şəbəkə strukturuna çevrilən şirkətin həm xarici, həm də daxili mühitinə təsir göstərir. Rəqəmsal biznes ekosisteminin bir hissəsinə çevrilməklə şirkət müxtəlif bazar iştirakçılarına məxsus resursları birləşdirərək daha səmərəli məhsul istehsal etmək imkanı əldə edir. Ümumiyyətlə, inkişaf etmiş rəqəmsal biznes mühiti yeni dəyər təklifləri yaratmaq, məhsuldarlığı və səmərəliliyi artırmaq üçün böyük potensial yaradır. O, həmçinin iqtisadi agentlər tərəfindən rasional qərarların qəbul edilməsinə, informasiyaya çıxışın asanlaşdırılmasına və məlumatlılığın artırılmasına töhfə verir. Təşkilatların avtomatlaşdırılması, rəqəmsal, rəqəmsal transformasiyası təşkilatların davamlı inkişafına kömək edir, eyni zamanda təşkilatların sosial, iqtisadi və ekoloji məsuliyyətini artırır [1].

Rəqəmsal idarəetmə müasir bir təşkilatın praktik fəaliyyətində bir fenomen olaraq getdikcə daha şüurlu olur və ümumiyyətlə qəbul edilir: idarəetmə sistemlərində dəyişikliklərə ehtiyac həm yerli, həm də xarici şirkətlərin rəhbərləri tərəfindən qəbul edilir. Gözlənilməz xarici mühit və ümumi turbulentlik şəraitində yeni proqram təminatının tətbiqi kifayət deyil, onu müəssisənin fəaliyyətinə "inteqrasiya etmək", vahid infrastruktur yaratmaq və yeni məlumat və nəticələri strateji məqsədlərə uyğunlaşdırmaq vacibdir.

Rəqəmsal idarəetmənin yaşıl iqtisadiyyatın inkişafına ilk və ən nəzərə çarpan təsiri resurs səmərəliliyinin artırılmasıdır. Rəqəmsal texnologiyalar sayəsində şirkətlər istehsal proseslərini optimallaşdıra, enerji səmərəliliyini artıra və çirkləndirici emissiyaları azalda bilərlər. Məsələn,

Əşyaların İnternetindən və analitik proqramlardan istifadə edərək şirkətlər öz enerji və su istehlaklarını izləyə və nəzarət edə, itkiləri müəyyən edib aradan qaldıra və xərcləri optimallaşdıra bilərlər. Bu, ətraf mühitə mənfi təsirləri azaldır və istehsal xərclərini azaldır.

Müasir şirkətlərin inkişaf strategiyalarını müəyyən edən eyni dərəcədə vacib tendensiya həm qlobal miqyasda iqtisadiyyatda, həm də ayrı-ayrı təşkilatlar səviyyəsində baş verən rəqəmsal transformasiyadır. Bir qayda olaraq, rəqəmsal transformasiya təşkilatda struktur dəyişiklikləri ilə əlaqələndirilir, bunun nəticəsində bütün iş prosesləri, dəyər zəncirləri və xarici kommunikasiyalar, idarəetmə və korporativ mədəniyyət köklü şəkildə dəyişir, biznes modelləri transformasiya olunur. Beləliklə, rəqəmsal transformasiya şirkətin fəaliyyətinin demək olar ki, bütün sahələrinə təsir göstərir və təkcə istehsal texnologiyalarının təkamülünü deyil, həm də bütün təşkilatın iş metodlarında vahid dəyişikliyi nəzərdə tutur. Nəticə etibarilə, şirkətin fəaliyyət göstərdiyi inkişaf etmiş rəqəmsal mühitin təşkilatın davamlı inkişaf prinsiplərinin həyata keçirilməsinə müsbət təsir edəcəyini güman etmək olar. Hazırda "rəqəmsal idarəetmə" termini dövrün yeni çağırışlarına cavab olaraq çevrilir: rəqəmsal transformasiya proseslərinin nəzəri anlayışı şirkətlərin fəaliyyətində rəqəmsal texnologiyaların yayılması təcrübəsi ilə ayaqlaşmır. Rəqəmsal infrastrukturun qurulması və ondan bütün mütəxəssislər tərəfindən səmərəli istifadə edilməsi üçün standartlaşdırılmış qaydalar, normalar, alqoritmlər və qaydalar yoxdur. Sadələşdirilmiş tədbirlər səhvlərdən qaçmağa, rəqəmsal transformasiyanın əsas proseslərinə və onun idarəetmə proseslərinə diqqət yetirməyə kömək edəcəkdir. Ona görə də elmi ictimaiyyətin bu bilik sahəsini rəsmiləşdirməyə cəhd göstərməsi, yeni alət və metodların işlənib hazırlanması vacibdir. Rəqəmsal idarəetmə konsepsiyasının yaranması və onun akademik mühitdə populyarlaşması rəqəmsal transformasiyaya yeni baxış və yanaşmaya kömək edir.

Bir təşkilat üçün rəqəmsal transformasiya strategiyasını formalaşdırarkən, təşkilatın mədəniyyətini rəqəmsal mədəniyyətə çevirmək vacib olur. Bundan əlavə, bir təşkilat üçün rəqəmsal transformasiya strategiyasının həyata keçirilməsi xarici mühitin davamlı monitorinqini nəzərdə tutur; bir iş sistemi kimi təşkilatın mövcud səlahiyyətlərinin rəqəmsal yetkinliyi baxımından təhlili; əsas fəaliyyət göstəriciləri nəzərə alınmaqla təşkilatın gələcəyinə dair baxışın formalaşdırılması.

Rəqəmsal mədəniyyətin formalaşmasını müəyyən edən təşkilatın rəqəmsal transformasiyası prosesi, ilk növbədə, təşkilatın fəaliyyət dairəsi, məqsədləri, strategiyası, ölçüsü, əsas dəyərləri və strukturundan asılıdır. Məsələn, rəqəmsal transformasiya prosesindəki uğursuzluqlar yeni proseslərin idarə edilməsinin xüsusiyyətlərini və onların təşkilatın insan resurslarına təsirini zəif başa düşməklə əlaqələndirilir [2].

Təşkilatların uğurlu rəqəmsal transformasiyasına nə mane olur? Risk qorxusu da daxil olmaqla bir neçə amil; funksional və şöbə maneələri; işçilərin rəqəmsal savadlılığı; müasir rəqəmsal mühitdə fəaliyyət göstərən təşkilati mədəniyyətin yaradılmasının çətinliyi. Beləliklə, rəqəmsal texnologiyalar təşkilatın mədəniyyətinin rəqəmsal mədəniyyətə çevrilməsində müəyyənedici amildir. Bir təşkilatın xarici ekoloji turbulentlik şəraitində sabit qalması üçün rəqəmsal mühitdə baş verən dəyişikliklərə cavab verməlidir.

Rəqəmsal transformasiya strategiyasının həyata keçirilməsi çərçivəsində təşkilat öz məqsəd və vəzifələrini mütəmadi olaraq nəzərdən keçirməlidir, yəni bu dəyişikliklər fundamental xarakter daşıyacaqdır. Bundan əlavə, təşkilatın rəhbərliyi tərəfindən təşkilatda planlaşdırılan dəyişikliklərlə bağlı məlumatların işçi heyətinə çatdırılması, bununla da işçi

heyətinin bu prosesə cəlb edilməsi, onların daha maraqlı və həvəsləndirilməsi, rəqəmsal bacarıqlar üzrə davamlı təlim sisteminin təşkili vacibdir.

Rəqəmsal mədəniyyətin formalaşması və inkişafı onun əsas elementlərindən biri olan bir təşkilatın rəqəmsal transformasiya strategiyasını həyata keçirərkən xüsusilə vacibdir.

Təşkilatın mədəniyyətinin rəqəmsal mədəniyyətə çevrilməsinə əsas maneələr aşağıdakılar ola bilər: işçilərin təşkilatın yeni məqsəd və vəzifələri haqqında məlumatlı olmaması; təşkilatın rəqəmsal transformasiyasını həyata keçirə bilən komandanın olmaması; az inkişaf etmiş kadr hazırlığı sistemi.

Təşkilatın rəqəmsal mədəniyyətini inkişaf etdirmək üçün alətlər bunlardır: yeni mədəniyyət nümayiş etdirən rəqəmsal transformasiya komandasının formalaşdırılması, rəqəmsal savadlılıq səviyyəsini artıran işçilər üçün təlim tədbirləri, personalın rəqəmsal səriştəsi və bununla da təşkilat özünü məlumatın mühafizəsi ilə təmin edir, informasiya təhlükəsizliyi sistemini yaradır.

Hesab edirik ki, rəqəmsal mədəniyyət rəqəmsal transformasiya strategiyasını həyata keçirərkən təşkilatların inkişafında məntiqi mərhələ və təşkilatların davamlı inkişafının saxlanması və təmin edilməsində dominant amildir. Təşkilatın rəqəmsal mədəniyyətinin öyrənilməsi, həm yeni imkanlar açan, həm də təhdidlər yaradan rəqəmsal texnologiyaların geniş istifadəsi ilə əlaqəli olan ekoloji dəyişkənlik şəraitində sabit qalmağı planlaşdıran bir təşkilatın rəqəmsal transformasiyası dövründə xüsusilə vacib mərhələyə çevrilir.

Rəqəmsal mədəniyyət təşkilatın kadrlara yeni rəqəmsal bacarıqlar öyrətməklə öz məlumatının qorunmasını təmin edə biləcəyi əsasdır.

Əlavə tədqiqat təşkilatların rəqəmsal transformasiyası kontekstində ayrı-ayrı sənaye və fəaliyyət sahələrində təşkilatların rəqəmsal mədəniyyətlərinin, habelə təşkilatın rəqəmsal transformasiyası strategiyasının formalaşdırılmasında etik aspektlərin öyrənilməsi ilə bağlıdır.

**Ədəbiyyat:**


1. Charlesworth, A. Digital Marketing: A Practical Approach / A. Charlesworth. – New York: Routledge, 2018.
2. Bhatia, P.S. Fundamentals of Digital Marketing / P.S. Bhatia. – New Deli: Pearson India, 2017.
3. Mammadov, E., Azimzadeh, A., Valizadeh, F., Ibrahimli, M.B., Farzullayev, T. (2024). The Role of Innovations in Companies for Sustainable Economic Development. In: Mammadov, F.S., Aliev, R.A., Kacprzyk, J., Pedrycz, W. (eds) International Conference on Smart Environment and Green Technologies – ICSEGT2024. ICSEGT 2024. Lecture Notes in Networks and Systems, vol 1252. Springer, Cham. https://doi.org/10.1007/978-3-031-81564-5_53
4. Глазьев, С. Ю. (2015). Формирование новой институциональной системы в условиях смены доминирующих технологических укладов. *Научные труды Вольного экономического общества России*, *190*(1), 37-45.

## DIGITALIZATION AS A FACTOR OF SUSTAINABLE DEVELOPMENT OF THE ENTERPRISE

**A.I. Isgandarova, C.R. Hajiyev, A.T. Ismayilova**

**SUMMARY**

The purpose of the scientific publication was to describe digital technologies as one of the factors ensuring the sustainable development of small businesses in the modern period of digital transformation. The study applies the author's approach to the analysis of digital technologies used by small businesses in the modern period of digital transformation as a factor ensuring the sustainable development of small businesses. Small businesses are sufficiently flexible and mobile, able to adapt to changing external conditions, and modern management tools allow for faster reformatting. The use of digital technologies by small businesses inevitably leads them to digital transformation.

## ЦИФРОВИЗАЦИЯ КАК ФАКТОР НЕПРЕРЫВНОГО РАЗВИТИЯ ПРЕДПРИЯТИЯ

**А.И. Искендерова, Д.Р. Гаджиев, А.Т. Исмаилова**

**РЕЗЮМЕ**

Целью научной публикации стало описание цифровых технологий как одного из факторов обеспечения устойчивого развития малого бизнеса в современный период цифровой трансформации. В исследовании применён авторский подход к анализу цифровых технологий, применяемых малым бизнесом в современный период цифровой трансформации как фактора, обеспечивающего устойчивое развитие малого бизнеса. Малый бизнес обладает достаточной гибкостью и мобильностью, способен адаптироваться под изменение внешних условий, а современные инструменты менеджмента позволяют быстрее переформатироваться. Применение цифровых технологий малым бизнесом неизбежно ведёт его к цифровой трансформации.

UOT № 33

# DÜNYA BANK SƏNAYESİNDƏ MÖVCUD VƏZİYYƏT VƏ İQTİSADİ MEYLLƏR

**E.E. Şəmsizadə, S.E. Səmədova, V.A. Quluzadə**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: elgunshamsizade2002@icloud.com , sabinasamedova00@gmail.com , aze_909@mail.ru

***Açar sözlər*:** qlobal iqtisadiyyat, mərkəzi banklar, bank sənayesi, qlobal risklər, inflyasiya, pul siyasəti, BVF proqnozları, pul kütləsi, maliyyə sabitliyi
***Keywords:*** global economy, central banks, banking industry, global risks, inflation, monetary policy, IMF forecasts, money supply, financial stability
***Ключевые слова:*** мировая экономика, центральные банки, банковская сфера, глобальные риски, инфляция, денежно-кредитная политика, прогнозы МВФ, денежная масса, финансовая стабильность.

Uzun sürən və görünməmiş sarsıntılardan sonra qlobal iqtisadiyyat sabit, lakin gözlənilməz artım templəri ilə sabitləşmiş görünür. Lakin dünya hökümətləri siyasət prioritetlərini yenidən sıraladıqca və qeyri-müəyyənlik yeni zirvələrə yüksəldikcə mənzərə dəyişdi. Qlobal artım proqnozları 2025-ci ilin Yanvar Dünya İqtisadi Görünüşündən (WEO) əhəmiyyətli dərəcədə aşağı salınıb, bu, bir əsrdə görünməmiş səviyyələrdə effektiv tarif dərəcələrini və olduqca gözlənilməz mühiti əks etdirir. Qlobal əsas inflyasiyanın yanvar ayında gözlənildiyindən bir qədər aşağı sürətlə enəcəyi gözlənilir. [1]

Ticarət gərginliyinin artması və maliyyə bazarında korreksiyaların artması fonunda aşağı yönlü risklərin artması dünyagörüşünə üstünlük verir. Siyasi mövqelərdə fikir ayrılıqları və sürətli dəyişikliklər və ya əhval-ruhiyyənin pisləşməsi qlobal maliyyə şərtlərinin daha da sərtləşməsinə səbəb ola bilər. Ticarət müharibəsinin eskalasiyası və artan ticarət siyasəti qeyri-müəyyənliyi həm qısamüddətli, həm də uzunmüddətli artım perspektivlərini daha da çətinləşdirə bilər. Beynəlxalq əməkdaşlığın azaldılması daha dayanıqlı qlobal iqtisadiyyata doğru irəliləyişə təhlükə yarada bilər.

Bu kritik məqamda ölkələr sabit və proqnozlaşdırıla bilən ticarət mühiti yaratmaq və beynəlxalq əməkdaşlığı təşviq etmək üçün konstruktiv şəkildə işləməlidir, eyni zamanda ölkələr daxilində siyasət boşluqları və struktur disbalansı aradan qaldırmalıdır. Bu, həm daxili, həm də xarici iqtisadi sabitliyin təmin olunmasına kömək edəcək. Sağlam qocalmanı təşviq edən və yaşlı insanlar və qadınlar arasında işçi qüvvəsinin iştirakını artıran siyasətlər böyüməni stimullaşdırmaq və maliyyə təzyiqini azaltmaq üçün həyata keçirilə bilər.

Qlobal iqtisadi artımın yavaşlaması və dəyişən iqtisadi mənzərə 2025-ci ildə bank sənayesi üçün yeni problem yaradacaq. Bir çox ölkədə inflyasiya ilə mübarizə üzrə son səylər uğur əlamətləri göstərsə də, tədarük zəncirinin pozulması, ticarətin restrukturizasiyası və davam edən geosiyasi gərginliklər bütün dünyada iqtisadi artıma təsir edəcək. Daşqınlar, isti dalğaları və qasırğalar kimi ekstremal hava hadisələri də ciddi iqtisadi fəsadlara səbəb ola bilər.

Bu fonda, Beynəlxalq Valyuta Fondu (BVF) 2025-ci ildə qlobal iqtisadiyyatın 3,0%-dən çox artmayacağını gözləyir. ABŞ, Avrozona, Yaponiya, Böyük Britaniya və Kanada kimi inkişaf etmiş iqtisadiyyatların 2025-ci ildə 1,4% səviyyəsində orta dərəcədə böyüməsi proqnozlaşdırılır. Bununla belə, bir çox inkişaf etməkdə olan yaranmaqda olan bazarlar daha yüksək tələblərə cavab verməlidir və ticarət balansının yaxşılaşdırılmasına nail olmalıdırlar. Xüsusilə, Hindistanın ən yüksək artım templərindən birini göstərəcəyi gözlənilir: 2025-ci ildə 6,3%.[2]

Digər tərəfdən, Çin zəif istehlak tələbi və problemli mənzil bazarları səbəbindən iqtisadi artımda mümkün yavaşlama ilə üzləşir. Çinin ixrac və idxalındakı zəiflik təkcə onun ticarət tərəfdaşlarına təsir etməyəcək, həm də tədarük zəncirinin dinamikasına təsir edəcək və qlobal iqtisadi canlanmanı daha da zəiflədəcək. Çində istehlakçıların və biznesin inamını bərpa etmək üçün son səylər başqa yerlərdə, xüsusən də Asiyada iqtisadi artıma təsir göstərə bilər. BVF-nin məlumatına görə, qlobal inflyasiyanın 2022-ci ildəki 8,7%-dən 2025-cü ildə 5,2%-ə enəcəyi gözlənilir. Birləşmiş Ştatlar kimi ölkələrdə əmək bazarı və istehlak xərcləri yavaşlama əlamətləri göstərir, lakin güclü və mərkəzi banklar tərəfindən qoyulan hədəflərə zidd olaraq qalır. Əslində, BVF inflyasiyanın demək olar ki, bütün ölkələrdə hədəfdən yuxarı qalacağını proqnozlaşdırır.

Mərkəzi banklar 2025-ci ildə pul siyasətlərini düzəldəcəklər. ABŞ-da federal fondların faiz dərəcəsinin 2024-cü ildə 550 baza bəndinə yüksəlmişdir, lakin FOMC-nin son proqnozlarına görə, 2025-ci ilin ikinci yarısında 450-500 baza bəndinə düşə bilər. Avropa Mərkəzi Bankının (AMB) ABŞ-da FOMC-nin son proqnozlarına uyğun olaraq federal fondların faiz dərəcəsini artırmağa başlayacağı gözlənilir. Faiz dərəcələrini azaldın 2023-cü ilin avqustunda ECB faiz dərəcəsi 2001-ci ilin zirvəsi ilə eyni olan 3,75% idi.

Bu arada, İngiltərə Bankı 2023-cü ilin sonunda 5,75%-ə çatdıqdan sonra 2024-cü ilin birinci yarısında əsas faiz dərəcəsini azaldıb. Hekayə Kanada Bankınınkinə bənzəyir: İngiltərə Bankının məlumatına əsasən, faiz dərəcələri 2025-ci ilin ikinci yarısında aşağı düşəcək.

5%-dən yuxarı qalxdıqca. Digər mərkəzi banklardan fərqli olaraq, Yaponiya Bankı əsas dərəcəsini sıfıra yaxın saxladı, lakin 2023-cü ilin yekunlarına həsr olunmuş iclasında qiymət təzyiqlərinə daha tez cavab vermək üçün istiqrazların gəlirliliyi qaydalarını tənzimləyəcəyini bildirdi.

Neft ixrac edən ölkələr təşkilatının son illik hesablamalarına görə, dünya məlumat mərkəzləri 2023-cü ildə təxminən 500 terawatt-saat elektrik enerjisi istehlak edəcək. Bu rəqəm, 2015-19-cu illərin cəmindən iki dəfə çox, OPEC-in proqnozlarına görə üç dəfə artaraq 1500 terawatt-saata çata bilər.

2024-cü ilin yekunlarına əsasən deyə bilərik ki, artıq Almaniya və ya Fransanın istehlakına bərabər olan məlumat mərkəzinin elektrik enerjisi istehlakı 2030-cu ilə qədər dünyanın üçüncü ən böyük elektrik istehlakçısı olan Hindistanın istehlakı ilə müqayisə edilə bilər. Bu, həm də onilliyin sonuna qədər elektriklə işləyən avtomobillərdən 1,5 dəfə çox enerji istifadə edəcək elektrik nəqliyyat vasitələrinin proqnozlaşdırılan istehlakını üstələyəcək.

Lakin ümumilikdə mərkəzi bankların kəmiyyət yumşaldıcı tədbirləri qlobal pul kütləsinin azalmasına gətirib çıxaracaq. Əslində, ABŞ-da M2 ilə ölçülən pul təklifi 1930-cu illərdən bəri ən yüksək sürətlə azalıb. Bu problemlər qarışıq və sporadik iqtisadi artıma gətirib çıxaracaq. Bəzi iqtisadiyyatların parlaq gələcəyi var, digərləri isə yüksək inflyasiya və aşağı artımla mübarizəni davam etdirəcək.

## Nəticə

Qlobal artımın siyasət dəyişiklikləri və yeni qeyri-müəyyənlik fonunda möhkəm, lakin zəif performans dövründən sonra mülayim olacağı proqnozlaşdırılır. Qlobal əsas inflyasiyanın bəzi ölkələrdə yüksəliş yönlü revizionlara baxmayaraq azalmağa davam edəcəyi gözlənilir. Proqnozla bağlı risklər aşağıya doğru əyilir. Ticarət gərginliyinin artması və siyasətdə qeyri-müəyyənliyin artması böyüməyə daha da mane ola bilər. Siyasət dəyişikliyi xüsusilə inkişaf etməkdə olan bazarlara təsir etməklə qlobal maliyyə şəraitinin kəskin sərtləşməsinə və kapital axınına səbəb ola bilər. Demoqrafik dəyişikliklər fiskal davamlılığı təhdid edir, eyni zamanda son yaşayış xərcləri böhranı sosial iğtişaşları yenidən alovlandıra bilər. Daha məhdud beynəlxalq

inkişaf yardımı aşağı gəlirli ölkələri daha da borca sövq edə, həyat standartlarını təhdid edə bilər. Bu kritik məqamda daxili iqtisadi sabitliyi təmin etməklə yanaşı, beynəlxalq əməkdaşlığı təşviq etmək və bununla da qlobal disbalansın azaldılmasına kömək etmək üçün siyasətlərin kalibrlənməsi lazımdır.[1]

**Ədəbiyyat:**


1. https://www.imf.org/en/Publications/WEO/Issues/2025/04/22/world-economic-outlook-april-2025
2. Barth, J. R., Lin, C., Ma, Y., Seade, J., & Song, F. M. (2013). Do Bank Regulation, Supervision and Monitoring Enhance or Impede Bank Efficiency? Journal of Banking & Finance, 37(8), 2879-2892


## CURRENT SITUATION AND ECONOMIC TRENDS IN THE WORLD BANKING INDUSTRY


**E.E. Shamsizadeh, S.E. Samedova, V.A. Guluzadeh**



**SUMMARY**

The thesis analyzes the results of 2024, based on these analyzes, the prospects for the global economy for 2025 are analyzed, problems related to the slowdown in growth, the changing economic landscape and global risks are identified. Factors such as supply chain disruptions, geopolitical tensions and extreme weather events that affect global economic growth forecasts are examined.

The thesis also includes the forecasts of the International Monetary Fund. The Fund's forecast for global inflation, the Central Bank's monetary policy scenarios and prospective development directions for various regions are examined, including strong growth in developing countries and potential problems in China.


## ТЕКУЩАЯ СИТУАЦИЯ И ЭКОНОМИЧЕСКИЕ ТЕНДЕНЦИИ В МИРОВОЙ БАНКОВСКОЙ ОТРАСЛИ


**Э.Э. Шамсизаде, С.Э. Самедова, В.А. Гулузаде**



**РЕЗЮМЕ**

В тезисе проанализированы итоги 2024 года, на основе этих анализов проанализированы перспективы мировой экономики на 2025 год, выявлены проблемы, связанные с замедлением роста, изменением экономического ландшафта и глобальными рисками. Рассматриваются такие факторы, как сбои в цепочке поставок, геополитическая напряженность и экстремальные погодные явления, влияющие на прогнозы мирового экономического роста.

В тезис также включены прогнозы Международного валютного фонда. Были рассмотрены прогноз Фонда по глобальной инфляции, сценарии денежно-кредитной политики Центрального банка и перспективные направления развития различных регионов, включая высокие темпы роста на развивающихся рынках и потенциальные проблемы в Китае.

UOT № 33

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA YAŞIL İQTİSADİYYAT MODELİNİN FORMALAŞDIRILMASI: ÇAĞIRIŞLAR VƏ İMKANLAR

**E.H.Qurbanov, F.D. Məmmədova, Ş.Ə. Kərimli**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov küçəsi 13

e-mail: eldarqurbanov17@gmail.com , fidan-mamedova-2025@mail.ru , kerimlisamil443@gmail.com

***Açar sözlər:*** Yaşıl iqtisadiyyat, Qarabağ, Şərqi Zəngəzur, Bərpa olunan enerji, Davamlı inkişaf

***Keywords:*** Green economy, Karabakh, Eastern Zangazur, Renewable energy, Sustainable development

***Ключевые слова:*** Зелёная экономика, Карабах, Восточный Зангезур, Возобновляемая энергия, Устойчивое развитие

İqlim dəyişikliyi, ekoloji fəlakətlərin artması, biomüxtəlifliyin itirilməsi və təbii resursların qeyri-effektiv istifadəsi XXI əsrdə qlobal təhlükəsizlik və iqtisadi inkişaf üçün əsas çağırışlar sırasındadır. Son onilliklərdə sənayeləşmənin sürətlənməsi və urbanizasiyanın geniş vüsət alması ətraf mühitə mənfi təsirləri daha da artırmışdır. Bu, atmosferə istixana qazlarının emissiyalarının artması, su və torpaq ehtiyatlarının tükənməsi, ekosistemlərin pozulması və iqlim şəraitində radikal dəyişikliklər ilə müşahidə olunur. BMT-nin 2030 Dayanıqlı İnkişaf Gündəliyində də qeyd olunduğu kimi, dünya ölkələri iqtisadi artımı ekoloji məsuliyyət və sosial inklüzivliklə uzlaşdırmağa məcburdur. Məhz bu kontekstdə “yaşıl iqtisadiyyat” modeli sürətlə aktuallaşır.

Yaşıl iqtisadiyyat — resurs effektivliyi, ətraf mühitin qorunması və sosial rifahın yüksəldilməsinə yönəlmiş yeni iqtisadi idarəetmə fəlsəfəsidir. Bu model çərçivəsində karbon emissiyalarının azaldılması, təmiz enerji mənbələrinin tətbiqi, yaşıl texnologiyaların stimullaşdırılması və ekoloji təhlükəsizlik əsas hədəf kimi çıxış edir.

Azərbaycan Respublikası da bu qlobal trendlərə uyğun olaraq iqtisadiyyatını daha davamlı və ekoloji baxımdan təhlükəsiz əsaslarla formalaşdırmaq istiqamətində mühüm addımlar atır. Xüsusilə, işğaldan azad edilmiş ərazilər – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları – ölkənin yaşıl iqtisadiyyat quruculuğu üçün pilot region statusuna malikdir. Bu ərazilərdə sıfırdan yeni infrastrukturun yaradılması dövlətə müasir texnologiyalara və ekoloji standartlara əsaslanan şəhərsalma və kənd təsərrüfatı strategiyasını həyata keçirmək imkanı verir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il tarixli müvafiq sərəncamında qeyd olunduğu kimi, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpası və inkişafı zamanı bərpa olunan enerji mənbələrindən istifadə, ekoloji kənd təsərrüfatının təşviqi, rəqəmsal və ağıllı texnologiyaların tətbiqi, eləcə də dayanıqlı infrastrukturun formalaşdırılması əsas prioritet istiqamətlər kimi müəyyən edilmişdir. Bu yanaşma bir tərəfdən regionun dayanıqlı inkişafını təmin edəcək, digər tərəfdən isə Azərbaycanın ümumrespublika miqyasında yaşıl iqtisadiyyat modelinə keçidinə təkan verəcəkdir .

Yaşıl iqtisadiyyat konsepsiyası XXI əsrin qlobal inkişaf gündəliyində əsas yer tutan yanaşmalardan biridir. Bu model iqtisadi artımı təbiətə zərər vermədən, ekosistemlərin dağılmasının qarşısını alaraq və gələcək nəsillər üçün resursların qorunması prinsipi ilə həyata keçirməyi hədəfləyir. BMT-nin Ətraf Mühit Proqramının [5] verdiyi tərifə əsasən, yaşıl iqtisadiyyat “aşağı karbon emissiyalı, resurs-effektiv və sosial cəhətdən inklüziv” iqtisadi sistemdir. Bu sistem dayanıqlı istehsal və istehlakı təşviq etməklə yanaşı, eyni zamanda yoxsulluğun azaldılmasına və rifah səviyyəsinin yüksəldilməsinə də töhfə verir.

Yaşıl iqtisadiyyatın əsas xüsusiyyətlərinə aşağıdakılar aiddir:

- Aşağı karbon emissiyaları: İstixana qazlarının azaldılması məqsədilə alternativ enerji mənbələrinə (günəş, külək, bioenerji) keçid;
- Resurs effektivliyi: Enerji, su və xammal ehtiyatlarından daha səmərəli və qənaətli istifadə;
- Ekoloji və sosial inklüzivlik: Ətraf mühitin qorunması ilə yanaşı, əhali qrupları arasında bərabər imkanların yaradılması;
- Ekoinnovasiyalar və texnologiyalar: Yeni texnoloji həllər və təmiz texnologiyaların tətbiqi;
- Davamlı iş yerləri (yaşıl məşğulluq): Ətraf mühitin mühafizəsinə yönəlmiş sahələrdə yeni iş imkanlarının yaradılması.

Yaşıl iqtisadiyyat modeli müxtəlif sektor və sahələrdə geniş tətbiq imkanlarına malikdir:

1. Bərpa olunan enerji sektoru: Günəş, külək, hidro və bioenerji mənbələrinin inkişafı bu sahədə əsas istiqamətlərdəndir. Məsələn, 2023-cü ilin məlumatlarına görə, dünya üzrə bərpa olunan enerji sektorunda 13.7 milyon insan çalışır [5].
2. Yaşıl nəqliyyat: Elektrik nəqliyyatı, velosiped infrastrukturunun genişləndirilməsi, ictimai nəqliyyatın modernizasiyası. Avropa Komissiyasının məlumatına əsasən, yaşıl nəqliyyat tədbirləri 2030-cu ilə qədər nəqliyyat sektorunda karbon emissiyalarını 60% azalda bilər [4].
3. Eko-kənd təsərrüfatı: Kimyəvi pestisid və gübrələrin azaldılması, orqanik məhsul istehsalına keçid. FAO-ya (2022) əsasən, orqanik kənd təsərrüfatı torpaq məhsuldarlığını 20–25% artırmaq potensialına malikdir.
4. Tullantıların idarə olunması: Tullantıların çeşidlənməsi, təkrar emal və dövri iqtisadiyyat yanaşmalarının tətbiqi. BMT-nin məlumatına görə, hər il dünyada 2.24 milyard ton bərk məişət tullantısı yaranır və bunun yalnız 55%-i emal olunur.
5. Davamlı şəhərsalma və tikinti: "Ağıllı şəhərlər", enerji effektiv binalar və ekoloji infrastruktur layihələri yaşıl iqtisadiyyatın mühüm komponentlərindəndir. Dünya Bankının 2021-ci il hesabatında qeyd olunur ki, yaşıl binalar enerji xərclərini orta hesabla 30% azaldır [6].

Bu sahələrin inkişafı həm də yaşıl məşğulluq anlayışının genişlənməsinə səbəb olur. Dünya üzrə artan tələbatla əlaqədar olaraq, yaşıl iqtisadiyyatla bağlı bacarıqlara malik işçilərin sayı hər il artmaqdadır. Azərbaycan üçün də bu tendensiya strateji əhəmiyyət kəsb edir, xüsusilə Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işləri çərçivəsində.

**Qarabağ və Şərqi Zəngəzurda yaşıl iqtisadiyyat potensialı**

Azərbaycan hökuməti 2020-ci ildə işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma proseslərini həyata keçirərkən, bu regionları ölkənin yaşıl iqtisadiyyat modelinin tətbiqində pilot zona kimi müəyyən etmişdir. Sıfırdan planlaşdırılan şəhərsalma və iqtisadi inkişaf, müasir və ekoloji baxımdan davamlı infrastrukturun qurulmasına geniş imkanlar yaradır. "2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"nda qeyd edildiyi kimi, Qarabağ və Şərqi Zəngəzurda bərpa olunan enerji istehsalının artırılması, "ağıllı kənd" və "yaşıl şəhər" modellərinin tətbiqi əsas strateji hədəflərdəndir [2].

Bu regionlarda bərpa olunan enerji potensialı olduqca yüksəkdir. Energetika Nazirliyinin məlumatına əsasən, yalnız Kəlbəcər-Laçın zonasının hidroenerji potensialı 500 MVt-dan çoxdur. 2023-cü ildə "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları, "Laçın" və "Zəngilan" günəş elektrik stansiyaları üzrə ilkin layihələndirmə işlərinə başlanılmışdır. Bu layihələr həm daxili enerji tələbatının qarşılanmasına, həm də ekoloji dayanıqlığa töhfə verir [3].Bundan əlavə, ekoloji kənd təsərrüfatı və rəqəmsal agrotexnologiyalar bu bölgədə kənd təsərrüfatının yenidən qurulmasında əsas elementlərdən sayılır. "Ağıllı kənd" modeli ilk olaraq Zəngilan rayonunun Ağalı kəndində tətbiq olunmuşdur. Burada günəş panelləri, damla suvarma sistemləri və bioloji pestisidlər kimi yaşıl texnologiyalar tətbiq edilmişdir [1].

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin ofisinin 2023-cü ildə dərc etdiyi məlumatda qeyd olunur ki, Qarabağ və Şərqi Zəngəzur regionları uzunmüddətli perspektivdə karbon neytrallığına nail olmaq üçün əlverişli model ola bilər. Regionda meşəlik sahələrin bərpası, bioloji müxtəlifliyin qorunması və ekoturizmin inkişafı da yaşıl iqtisadiyyat çərçivəsində nəzərdə tutulan əsas istiqamətlərdəndir. Beləliklə, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən infrastruktur layihələri təkcə fiziki bərpa deyil, həm də dayanıqlı, ekoloji və sosial cəhətdən inklüziv iqtisadi sistemin formalaşmasına yönəlmişdir. Bu ərazilərdə tətbiq ediləcək yaşıl iqtisadiyyat modeli gələcəkdə ölkənin digər regionları üçün də nümunəvi çərçivə rolunu oynaya bilər.

**Cədvəl 1**. Qarabağ və Şərqi Zəngəzurda planlaşdırılan yaşıl enerji layihələri (2023–2027)

| **Layihə adı** | **Enerji mənbəyi** | **Gücü (MW)** | **İl** |
|---|---|---|---|
| Laçın Günəş Elektrik Stansiyası | Günəş | 50 | 2025 |
| Kəlbəcər Su Elektrik Stansiyası | Su | 24 | 2024 |
| Qubadlı Külək Enerji Parkı | Külək | 30 | 2026 |
| Ağdamda Yaşıl Texnologiyalar Mərkəzi | Günəş və bioenerji | - | 2027 |

Mənbə: Azərbaycan Respublikasının Energetika Nazirliyi, 2024

Qarabağ və Şərqi Zəngəzurda yaşıl iqtisadiyyat modelinin formalaşdırılması Azərbaycanın davamlı inkişaf strategiyasına tam uyğun olan, həm ekoloji, həm də sosial-iqtisadi baxımdan əhəmiyyətli bir təşəbbüsdür. Bu modelin uğurla reallaşdırılması, bir tərəfdən ölkənin ətraf mühitin qorunması üzrə beynəlxalq öhdəliklərinin yerinə yetirilməsinə şərait yaradacaq, digər tərəfdən isə regionun sosial-iqtisadi dirçəlişinə təkan verəcək. Yaşıl iqtisadiyyatın təşviqi həm də Azərbaycanı postmünaqişə dövründə regional ekoloji liderliyə namizəd edir.

Bununla yanaşı, yaşıl iqtisadiyyat yanaşması ölkənin beynəlxalq aləmdə imicini gücləndirəcək, xarici investorlar üçün cəlbedici iqtisadi mühit yaradacaq və ətraf mühitlə dost iqtisadi modelin yayılmasına töhfə verəcəkdir. Nəticə etibarilə, Qarabağ və Şərqi Zəngəzurun yaşıl iqtisadiyyat zonası kimi formalaşdırılması, Azərbaycanın gələcək nəsilləri üçün daha sağlam və davamlı həyat şəraitinin yaradılmasına zəmin olacaqdır.

## Ədəbiyyat:


1. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2022). 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyası.
2. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2021). Qarabağ və Şərqi Zəngəzurda yaşıl enerji zonası haqqında.
3. Azərbaycan Respublikasının Energetika Nazirliyi. (2024). Yaşıl enerji layihələri hesabatı.
4. European Commission. (2020). The European Green Deal.
5. International Renewable Energy Agency (IRENA). (2023). World Energy Transitions Outlook 2023: 1.5°C Pathway. Abu Dhabi: IRENA. https://www.irena.org/publications/2023/Jun/World-Energy-Transitions-Outlook-2023
6. UNEP. (2011). Towards a Green Economy: Pathways to Sustainable Development and Poverty Eradication.

## FORMING A GREEN ECONOMY MODEL IN KARABAKH AND EAST ZANGEZUR: CHALLENGES AND OPPORTUNITIE

**E.H. Gurbanov, F.D. Mammadova, Sh.A. Karimli**

### SUMMARY

This thesis explores the potential, challenges, and prospects of implementing a green economy model in the economic regions of Karabakh and East Zangezur. Against the backdrop of climate change, inefficient resource use, and ecological issues, Azerbaijan aims to establish these territories as pilot zones for green development. The main directions include renewable energy projects, ecological agriculture, digitalization, and sustainable infrastructure.

## ФОРМИРОВАНИЕ МОДЕЛИ ЗЕЛЁНОЙ ЭКОНОМИКИ В КАРАБАХЕ И ВОСТОЧНОМ ЗАНГЕЗУРЕ: ВЫЗОВЫ И ВОЗМОЖНОСТИ

**Э.Х. Гурбанов, Ф.Д. Мамедова, Ш.А. Керимли**

### РЕЗЮМЕ

В данной работе рассматриваются перспективы, вызовы и возможности внедрения модели зелёной экономики в экономических регионах Карабаха и Восточного Зангезура. На фоне климатических изменений, неэффективного использования ресурсов и экологических проблем подчеркивается важность формирования зелёной экономики в освобождённых территориях Азербайджана. Основные направления включают проекты возобновляемой энергетики, экологическое сельское хозяйство, цифровизацию и устойчивую инфраструктуру.

UOT № 33, 37

# SÜNİ İNTELLEKTİN SAHIBKARLIQ TƏHSİLİNƏ TƏSİRİ

**Ə.Q. Cəfərov, A.E. Əliyeva, R.V. İmanova**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: ali.caffarovv@gmail.com , aysualieva0@gmail.com , rimanova1982@gmail.com

***Açar sözlər:*** Süni intellekt, sahibkarlıq təhsili, fərdiləşdirmə, innovasiya, analitik bacarıqlar, etik məsələlər, biznes modelləri, təhsil texnologiyaları.

***Keywords:*** Artificial intelligence, entrepreneurial education, personalization, innovation, analytical skills, ethical issues, business models, educational technologies.

***Ключевые слова:*** Искусственный интеллект, предпринимательское образование, персонализация, инновации, аналитические навыки, этические вопросы, бизнес-модели, образовательные технологии.

## Giriş

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 1 yanvar 2023-cü il tarixinə əhalinin sayı 736.420 nəfər, o cümlədən kişilər 372.019 (50,52 %), qadınlar 364.401 nəfər (49,48 %) təşkil etmişdir. Ölkə əhalisinin 7,27 %-i Qarabağ iqtisadi rayonunda məskunlaşmışdır. Əhalinin sıxlığı 1 $km^2$ əraziyə 82 nəfərdir. Qarabağ iqtisadi iqtisadi rayonuna respublika tabeliyində olan Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Füzuli rayonları və Xankəndi şəhəri daxildir. Bu iqtisadi rayon Bakı-Şuşa turizm marşrutu üzərində yerləşir.

Bu ərazi təbii, tarixi, mədəni abidələrlə (Ağdam rayonunun Xaçın Türbəli kəndində türbə (XIX əsr), dünya əhəmiyyətli arxeoloji abidələrə Füzuli rayonunda Azıx, Tağlar mağaraları (paleolit dövrü), Ağdam rayonunun Əfətli kəndində Çalağantəpə yaşayış yeri (eneolit dövrü), Quzanlı qəsəbəsində Leylantəpə yaşayış yeri (eneolit dövrü), Ağdam şəhərində Üzərliktəpə yaşayış yeri (tunc dövrü), Tərtər rayonunda Borsunlu kurqanları (tunc və ilk dəmir dövrü), Xocalı rayonunda Xocalı kurqanları (tunc-ilk dəmir dövrü), Cəbrayıl rayonunun Xubyarlı kəndində Niftalı kurqanları (tunc dövrü) ,alban məbədləri ilə Xocavənd rayonu ərazisindəki 16 alban məbədi ( IV-VI əsrlər). Xocalı rayonu (6 alban məbədi), Şuşada XVIII əsrdə yaşamış xanların evləri, sarayları, qəsrləri, məscidlər, türbələr (XVIII-XIX əsr), Cəbrayıl, Füzuli, Ağdam rayonlarının tarixi kəndlərində çox sayda qala, məscid və digər inanc yerləri), flora və fauna ilə çox zəngindir. Bu mədəni turizmin inkişaf etdirilməsi üçün olduqca əlverişli amillərdir [1. s.346]. Xüsusi olaraq qeyd edilməlidir ki, mədəni turizm məqsədilə ölkəyə gələn şəxslər adi turistlərlə müqayisədə öz vəsaitlərinin daha çox hissəsini xidmətlərə xərcləyirlər.

Murovdağ və Qarabağ silsilələri bu ərazidə yerləşir. Düzən və dağətəyi yelərdə orta temperatur yanvarda 2-0,5°C, yüksək dağlıqda -5-13°C-yə qədərdir. İyul ayında isə bu göstərici müvafiq olaraq 25-26°C və 15-14°C təşkil edir. İllik yağıntı düzən və dağətəyi yerlərdə 500-600 mm, yüksək dağlıqda 800-950 mm-dir. Murovdağ silsiləsinin zirvələri bəzən il boyu qarlı olur. Bu dağ və qış turizminin inkişafı nöqteyi nəzərindən olduqca əlverişli qiymətləndirilir.

Silsilələr və onların yan qollarının çaylarla parçalanması nəticəsində dərin və sıldırım yamaclı dərələr yaranmışdır. Nisbətən orta dağlıqda çay dərələrinin genişləndiyi sahələrdə mənzərəli dağarası çökəkliklər (Dovşanlı, Xankəndi və s.), Şuşanın Daşaltı dərəsində yerləşən Çətir şəlaləsi, tarixən cıdır yarışlarının təşkil olunduğu Cıdır düzü kimi füsünkar gözəlliyə malik yerlərlə, müalicə əhəmiyyəti olan mineral sularla ( 120-dən artıq mineral bulaq vardır: Şuşa rayonu ərazisindəki Turşsu, İsa, Şırlan bulaqları və s.) olduqca zəngindır. Ərazinin 30 %-i meşəlikdir. Bu ekoloji, müalicə- sağlamlıq və kənd turizmi üçün olduqca əlverişlidir.

İşğaldan əvvəl bu ərazidə balneoloji dağ-iqlim kurortu (Şuşa), istirahət zonası (Gülablı) yerləşirdi. Zəngin və cəlbedici turizm obyektləri: məqbərələr, məscidlər, karvansaralar, qüllələr (Ağdam), Azıx mağarası (Füzuli), Ağgöl qoruğu (Ayrıca) və s.. Şuşa mühüm turizm mərkəzidir. Şuşada qədim qala divarları, Qarabağ xanlarının iqamətkahları, X.Natəvanın ev muzeyi, M.P.Vaqifin məqbərəsi, Daşaltı dərəsi, Xəzinə Qala mağarası, Alban kilsələri turistləri cəlb edən obyektlər olmuşdur.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2022-ci ildə Qarabağ iqtisadi rayonu üzrə 4851 hüquqi şəxs, 78.042 fiziki şəxs olmaqla 82.893 təsərrüfat

subyekti fəaliyyət göstərmişdir. Bu da respublika üzrə hüquqi şəxslərin 2,65 %-nin, fiziki şəxslərin isə 6,38 %-nin Qarabağ iqtisadi rayonunda fəaliyyət göstərməsi deməkdir. Həmçinin, respublika üzrə muzdlu işçilərin 3,78 %-i Qarabağ iqtisadi rayonunda əmək fəaliyyətindədir. Respublika üzrə əhalinin nominal gəlirlərinin 2,42 %-i, əsas sahələr üzrə məhsulun ümumi buraxılışının 2,46 %-i, sənaye məhsulunun 0,22 %-i, kənd təsərrüfatın məhsulunun 10,13 %-i, pərakəndə ticarət dövriyyəsinin 2,4 %-i, əsas kapitala yönəldilmiş investisiyaların 10,56 %-i Qarabağ iqtisadi rayonunun payına düşür [4, səh. 329].

Qarabağ iqtisadi rayonu Azərbaycanın ən zəngin turizm potensialına malik bölgəsidir. Burada incəsənət, qədim tarix və mədəniyyət, füsünkar təbiət nümunələri turizm komplekslərinin yaradılması üçün yararlıdır.

2. Şərqi Zəngəzur iqtisadi rayonu.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 1 yanvar 2023-cü il tarixinə əhalinin sayı 300.441 nəfər, o cümlədən kişilər 151.146 (50,31 %), qadınlar 149.295 nəfər (49,69 %) təşkil etmişdir. Ölkə əhalisinin 2,97 %-i Şərqi-Zəngəzur iqtisadi rayonunda məskunlaşmışdır. Əhalinin sıxlığı 1 $km^2$ əraziyə 40 nəfərdir. Şərqi-Zəngəzur iqtisadi rayonuna respublika tabeliyində olan Cəbrayıl, Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları daxildir. Bu bölgə tarixi-mədəni abidələrlə, xüsusilə dünya əhəmiyyətli memarlıq və arxeoloji abidələrlə zəngindir.

Dünya əhəmiyyətli memarlıq abidələrinə Kəlbəcər rayonunda Xudavəng məbədini (VI-VII əsr Alban məbəd kompleksi), Vəngli kəndində Gəncəsər məbədi (XIII əsr) aid edilir. Bölgədə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələrinə - Cəbrayıl rayonunda 11 tağlı (XI-XII əsrlər) və 15 aşırımlı (XIII əsr) Xudafərin körpüləri, Kəlbəcər rayonu ərazisində yerləşən Lev Qalası (VII-VIII əsrlər), Çıldıran, Qarnakar, Qocaqot, Həsənriz kəndlərində alban məbədləri, ilk və orta tunc dövrünə aid yaşayış yerləri, hekropollar; Qubadlı rayonunun Əliqulluuşağı kəndində Göy qala (V əsr), mağara məbədi, Məzrə kəndindəki VI-VII əsrlərə aid Alban məbədi, Dəmirçilər kəndində türbələr (XIV əsr), Balahəsənli kəndində sığınacaqlar (IV əsr), 1867-ci ildə inşa edilən Laləzar körpüsü, XIX əsrə aid olan Hacı Bədəl körpüsü, Məmər kəndindəki Qubadlı məscidi (XVIII əsr), Gürcülü türbəsi (XVIII əsr), qoç heykəllər; Laçın rayonunda Cicimli kəndində türbələr (XIV və XVIII əsrlər), kurqanlar (dəmir dövrü), Qoçaz kəndində mağara məbədi (V əsr), Zəngilan rayonunun Əmirxanlı kəndində Qız qalası (XII əsr), Yenikənd və Şərifan kəndlərində sərdabələr (XIII-XV əsrlər), Koroğlu Daşı abidəsi, Babalı kəndində yerləşən alban kilisəsi, Məmmədbəyli kəndində səkkizguşəli Məmmədbəyli Türbəsi (XIV əsr) aid edilir. Kəlbəcər-Laçın bölgəsində həmçinin yerli əhəmiyyətli tarixi-mədəni abidələr də çoxdur (məscid, məqbərə, qədim yaşayış yeri və s.) [1. s.354]. Bu qeyd edilən tarixi-mədəni abidələr mədəni turizm potensialı kimi qiymətləndirilə bilər.

Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində Araz çayına tökülən ən iri Həkəri, Oxçuçay, Tərtər və başqa çaylarla yanaşı, füsünkar təbii gözəlliyə malik vulkan mənşəli göllər (Böyük və Kiçik Alagöllər, Qaragöl), çinar meşəliyi olan Bəsitçay qoruğu (Zəngilan), dağ meşələri də yerləşir.Nadir ağacları olan meşələrin sahəsi təxminən 92 min ha təşkil edir (respublika meşələrinin 9%-i). Bunun 72%-i Kəlbəcər və Laçın inzibati rayonlarında yerlşən dağ meşələridir. Hansı ki, turizm-rekreasiya sərvəti kimi əhəmiyyəti olduqca böyükdür. Ərazisində dağ silsilələri və yaylalar üstünlük təşkil etsə də, dərin dərələr, dağarası çökəkliklər, düzənliklər bir-birini əvəz edir. Rayonun təbii şəraitinin başlıca xüsusiyyəti onun rəngarəngliyidir. Bu amillər dağ, ekoloji və kənd turizminin inkişaf etdirilməsi üçün olduqca cəlbedicidir.

Şərqi Zəngəzur iqtisadi rayonu mineral su ehtiyatları ilə zəngindir, mineral suların ümumi ehtiyatı 7393 $m^3$ /gün təşkil edir. Respublikamızın mineral su ehtiyatının 33 %-i (mineral su ehtiyatları kimyəvi tərkibinin müxtəlifliyinə görə fərqlənir), o cümlədən bunun isə 58%-i Laçının, 42%-i Kəlbəcərin payına düşür. Termal suların temperaturu 60-100°C-dir və bu mənbələrin iri yataqlarına Yuxarı və Aşağı İstisu, Turxun, Keşdək, Qoturlu (Kəlbəcər), Minkənd soyuq su tipli mineral bulağı (Laçın), Ağbiz bulağı (Zəngilan) və b. aid etmək olar. Alternativi olmayan İstisu bulaqları müalicəvi əhəmiyyətə malikdir.İstisu, Minkənd, Tutquncay kimi mineral bulaqlar, iqlim-balneoloji şərait, kurort-rekreasiya məqsədləri üçün istifadə edilə bilər.Bu bulaqların potensial ehtiyatı, yerləşdiyi ərazinin təbiətinin cəlbediciliyi müalicə-sağlamlıq turizminin təşkili üçün əlverişli təbii amillərdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2022-ci ildə Şəki-Zaqatala iqtisadi rayonu üzrə 1051 hüquqi şəxs, 4438 fiziki şəxs olmaqla, 5489 təsərrüfat subyekti fəaliyyət göstərmişdir. Bu da respublika üzrə hüquqi şəxslərin 0,57 %-nin, fiziki şəxslərin isə 0,36 %-nin Şərqi Zəngəzur iqtisadi rayonunda fəaliyyət göstərməsi deməkdir. Həmçinin, respublika üzrə muzdlu işçilərin 1,24 %-i Şərqi Zəngəzur iqtisadi rayonunda əmək fəaliyyətindədir. Respublikada əsas sahələr üzrə məhsulun ümumi buraxılışının 1,57 %-i, sənaye məhsulunun 0,008 %-i, kənd təsərrüfatın məhsulunun 1,10 %-i, əsas kapitala yönəldilmiş investisiyaların 12,41 %-i Şərqi Zəngəzur iqtisadi rayonunun payına düşür [4, səh. 374].

Qeyd edilən məlumatlara əsaslanaraq deyə bilərik ki, işğaldan azad edilmiş ərazilərimizin turizm imkanları əhəmiyyətli dərəcədə böyükdür. Amma nəzərə almalıyıq ki, bu ərazilər 27 il müddətində düşmən tərəfindən amansızcasına istismar olunub, tarixi-mədəni abidələrimiz dağıdılıb, mövcud infrastruktur məhv edilibdir. Lakin Ali Baş Komandanımız və yenilməz ordumuzun sayəsində xalqımızın öz tarixi torpaqlarına qayıdışı nəticəsində bu ərazilərin yenidən dirçəldilməsi istiqamətində fövqəladə işlər aparılmaqdadır. Yaşayış şəraitinin və ümumi infrastrukturun (yollar, qaz, su, elektrik enerjisi, rabitə), sonrakı mərhələdə isə iqtisadi inkişaf layihələrininin reallaşdırılması məsələləri öz həllini tapmaqdadır.

Bildiyimiz kimi, sosial iqtisadi inkişaf sosial demoqrafik vəziyyətin perspektivini müəyyənləşdirir. Məşğulluq səviyyəsi nə qədər yüksəkdirsə, bir o qədər davamlı inkişaf xarakterikdir, məskunlaşma problemləri həll olur, iqtisadi münasibətlər daha dayanıqlı, müntəzəm artan və öz imkanlarına uyğun sahələrin inkişaf etdirilməsinə imkan yaradır. Məskunlaşma prosesi hər bir regionun kompleks inkişafının tərkib hissəsidir. Regionlarda iqtisadi potensialla əhali məşğulluğunun birgə inkişaf etdirilməsi iş qüvvəsinin qıtlığını azaldır, əhalinin həmin regiona axınını stimullaşdırır. Qeyd etməliyik ki, məskunlaşma həyat səviyyəsi və sosial infrastrukturanın inkişafı ilə birbaşa bağlıdır. [2. s.176]

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsinə əsaslanaraq, dövlətin bu istiqamətdəstrateji məqsədlərinin

• ölkə üzrə əlverişli mühitin yaradılması üçün ölkəyə giriş-çıxışın sadələşdirilməsi, əlaqə vasitələrinin təkmilləşdirilməsi, turizm sektorunun ayrı-ayrı iştirakçıları arasında koordinasiyalı fəaliyyətin qurulması və turizm və rekreasiya zonalarının yaradılması kimi dəstəkverici mexanizmlərin tətbiqi ilə uzunmüddətli inkişaf;

• sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi turizm növlərini əsas götürərək, regional turizmi daha da inkişaf etdirməklə, Azərbaycanın turizm sektoru üzrə təkliflərini diversifikasiya etmək və uzunmüddətli dövrdə ölkəyə daha çox turistin cəlb edilməsi;

• turizm sektorunda göstərilən xidmətlərin keyfiyyət və kəmiyyət göstəriciləri baxımından təkmilləşdirilməsi məqsədilə turizm keyfiyyət sisteminin yaradılması ilə turistlərin məmnunluq səviyyəsinin artırılması [3. s.24]

**Ədəbiyyat:**


1. H.Soltanova. Azərbaycan Respublikasında turizm və onun inkişaf. Bakı 2015.
2. Ə.Q.Əlirzayev. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı 2010.
3. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
4. AR Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/


## EVALUATION OF TOURISM POTENTIAL OF THE ECONOMIC REGIONS LIBERATED FROM OCCUPATION


**F.M. Mammadova, G.B. Mammadova, A.J. Guliyev**



### SUMMARY

The integration of the liberated territories—endowed with substantial natural raw materials and energy resources—into the national economy is expected to contribute to GDP growth, enhance employment, significantly increase household incomes, improve infrastructure, and create solid opportunities for the development of tourism. These factors, in turn, should have a positive impact on reducing the country's dependence on the oil sector and fostering the dynamic development of the non-oil sector.


## ОЦЕНКА ТУРИСТИЧЕСКОГО ПОТЕНЦИАЛА ЭКОНОМИЧЕСКИХ РЕГИОНОВ, ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ


**Ф.М. Мамедова, Г.Б. Мамедова, А.Д. Гулиев,**



### РЕЗЮМЕ

Интеграция богатого экономического потенциала освобождённых от оккупации территорий, обладающих значительными природными сырьевыми и энергетическими ресурсами, в экономику страны должна стимулировать рост ВВП, способствовать занятости населения, существенному увеличению доходов, улучшению инфраструктуры и формированию устойчивых возможностей для развития туризма. Эти факторы, в свою очередь, должны оказать положительное влияние на снижение зависимости национальной экономики от нефтяного фактора и способствовать динамичному развитию ненефтяного сектора.

UOT № 33

# DÜNYA İQTİSADİYYATINDA MÖVCUD VƏZİYYƏT: PROQNOZLAR VƏ RİSKLƏR

**G.A. Xudaverdiyeva, Ə.E. İbadzadə, M.E. Babayeva**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: gulnurkhudaverdieva@gmail.com , xatun.ibadzade02@gmail.com , babayeva_mina@inbox.ru

***Açar sözlər:*** dünya iqtisadiyyatı, BVF, maliyyə proqnozu, iqtisadi risklər, iqtisadi inkişaf.
***Keywords:*** world economy, IMF, financial forecast, economic risks, economic development.
***Ключевые слова:*** мировая экономика, МВФ, финансовый прогноз, экономические риски, экономическое развитие.

OECD-nin son İqtisadi Perspektivlər hesabatına görə, qlobal iqtisadiyyat əhəmiyyətli çətinliklərə baxmayaraq dayanıqlı qalacaq. Qlobal ÜDM artımının 2025 və 2026-cı illərdə 3,3% olacağı gözlənilir. 2024-cü ildəki 3,2%-lə müqayisədə, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində inflyasiya ən çox məhdudlaşdırıcı siyasətin davam etdirilməsi sayəsində 2024-cü ildəki 5,4%-dən 2025-ci ildə 3,8%-ə və 2026-cı ildə 3,0%-ə enməyə davam edəcək. Qabaqcıl iqtisadiyyatların təxminən yarısında və inkişaf etməkdə olan bazar iqtisadiyyatlarının təxminən 60%-də əsas inflyasiya artıq mərkəzi bankın hədəflərinə qayıtmışdır.[1]

Dünya Bankı öz proqnozunda 2,6% qlobal iqtisadi artım üçün daha təvazökar rəqəm verir[2]. Ən böyük beynəlxalq sığorta şirkəti Allianz Trade 2,8% artım tempini gözləyir[3].

ABŞ iqtisadiyyatı yavaşlayır, lakin qlobal iqtisadiyyatın mühüm sütunu olaraq qalır. İƏİT-ə görə, ABŞ-da iqtisadi artım 2024-cü ildəki 2,8%-dən 2025-ci ildə 2,4%-ə kimi yavaşlayacaq. Almaniyada 2024-cü ildə faktiki olaraq sıfır artımdan sonra artımın 0,8% olacağı gözlənilir. Fransada iqtisadi artım isə əksinə, 1,1%-dən 0,9%-ə qədər azalacaq. Bütövlükdə Avro zonasının 2024-cü ildəki 0,8%-dən 2025-ci ildə 1,3%-ə qədər bir qədər bərpa olacağı gözlənilir. Hökumətin iqtisadi siyasətləri ilə bağlı inflyasiya riskləri səbəbindən inflyasiya avrozonada 2%-2,25% səviyyəsində nəzarət altında qalmalıdır, ABŞ-da isə daha yüksək, 2,5%-3,0% ola bilər.

Allianz Trade-ə görə Çin iqtisadiyyatı hələ də daşınmaz əmlak böhranından çıxmayıb. Çində ən azı 65 milyon boş ev var ki, bu da Fransanın bütün əhalisini yerləşdirmək üçün kifayətdir. Bu vakansiya səviyyəsi özəl sektora inamı sarsıdır. Hökumətin dəstəyi tədbirləri hələ də rahatlama gətirməyib və vəziyyət daha da pisləşə bilər. Bununla əlaqədar OECD ekspertləri Çin iqtisadiyyatının artım tempinin 2024-cü ildəki 4,9%-dən 2025-ci ildə 4,7%-ə qədər bir qədər azalacağını proqnozlaşdırırlar. Hindistan iqtisadiyyatı artımda lider olaraq qalır, artımın 2024-cü ildəki 6,8%-dən sonra 2025-ci ildə 6,9%-ə çatacağı gözlənilir.

Rusiya iqtisadiyyatına gəlincə, 2024-cü ildə 3,9% artım elan edildikdən sonra 2025-ci ildə BVF və OECD bu göstəricinin müvafiq olaraq 1,3% və 1,1%-ə qədər kəskin azalacağını proqnozlaşdırır. Rusiya İqtisadi İnkişaf Nazirliyinin rəhbərliyi isə belə pessimist proqnozlarla razılaşmır və qlobal institutların iqtisadiyyatın stimullaşdırılması üçün hökumətin planlaşdırdığı tədbirləri nəzərə almadığını bildirir.

Tezisin əvvəlində qeyd edildiyi kimi, qlobal iqtisadiyyat risklərə baxmayaraq, ümumilikdə davamlı artımı qoruyacaq. Lakin ən pis ssenaridə bu risklər dünyada iqtisadi sabitliyi əhəmiyyətli dərəcədə poza bilər. Tramp administrasiyasının gəlişi 2025-ci ildə qlobal iqtisadiyyatın və ticarətin vəziyyətinə əhəmiyyətli dərəcədə qeyri-müəyyənlik əlavə edəcək. Artıq 2024-cü ilin əvvəlində, o vaxt hələ də prezidentliyə namizəd olan Tramp bir sıra bəyanatlar verib ki, ona görə, yenidən prezident postuna seçilsə, çox güman ki, proteksionist ticarət

siyasətinə qayıdacaq, yalnız daha sərt versiyada. Konkret olaraq, söhbət bütün ölkələrdən demək olar ki, bütün illik idxala 3 trilyon dollar məbləğində 10 faizlik idxal rüsumunun tətbiqindən gedirdi. Çinə qarşı xüsusilə sərt məhdudlaşdırıcı tədbirlər vəd edildi, yəni Çinin ABŞ ilə ticarətdə ən əlverişli dövlət rejimindən məhrum edərək ticarət statusunun aşağı salınması, Çin idxalına federal tarifləri avtomatik olaraq 40 faiz və ya daha çox artırmalıdır. ABŞ-da idxal tariflərindəki bu cür artımı yalnız Böyük Depressiya dövründəki vəziyyətlə və 1930-cu il məşhur Smoot-Hawley Aktı ilə müqayisə etmək olar, bu təcrübə sonradan Trampın 2016-cı ildə seçilməsinə qədər bütün sonrakı Amerika administrasiyaları tərəfindən pislənmişdi.

Beləliklə, söhbət ABŞ və Çin arasında mümkün yeni ticarət müharibəsindən gedir. Məlum olduğu kimi, 2018–2019-cu illərdə Tramp administrasiyasının proteksionist ticarət siyasəti Vaşinqtonun beynəlxalq ticarət qaydalarına zidd olan ticarət maneələrini kəskin tənqid edən ABŞ-ın ən mühüm ticarət tərəfdaşları ilə bir sıra ciddi toqquşmalara səbəb olub. Bu, eyni zamanda, dünyanın əsas iqtisadi qurumlarının rəhbərlərinin də ciddi narahatlığına səbəb olub. Beləliklə, BVF-nin o zamankı idarəedici direktoru Kristin Laqard Ağ Evin rəhbərinə işarə etdi ki, ticarət kəsirini azaltmaq üçün idxal rüsumlarını artırmaq əvəzinə dövlət xərclərini azaltmağa çalışmaq daha yaxşı olardı[4].

İndi yeni köhnə prezidentin yuxarıda qeyd olunan təşəbbüsləri həyata keçirilərsə, həm Respublikaçı, həm də Demokratik partiyaların iqtisadçılarının razılaşdığı kimi, qlobal iqtisadiyyatda Trampın birinci dövründəki ticarət müharibələrinin nəticələrini xeyli üstələyən şoklara səbəb olacaq[5]. BVF-nin hazırkı rəhbəri Kristalina Georgievanın keçən həftə qeyd etdiyi kimi, dünyanın ən böyük iqtisadiyyatı kimi ABŞ-dan gələn ticarət müharibəsi təhlükəsi 2025-ci ildə onsuz da yüksək qeyri-müəyyənlik səviyyəsini artıracaq. Onun sözlərinə görə, bu qeyri-müəyyənlik, hətta qısamüddətli dərəcələrin aşağı düşməsinə baxmayaraq, artıq uzunmüddətli faiz dərəcələrinin artmasında özünü göstərir. O əlavə edib ki, Vaşinqtonun yeni ticarət siyasətlərinin təsiri qlobal təchizat zəncirlərinə və bütövlükdə Asiya regionuna dərindən inteqrasiya olunmuş ölkələr tərəfindən xüsusilə ağır hiss olunacaq.[6] Beləliklə, bu gün ABŞ-ın ən böyük ticarət tərəfdaşları Ağ Evin yeni liderinin tariflərlə bağlı qərarını gərgin şəkildə gözləyirlər: 20 Yanvarda andiçmə mərasimindən dərhal sonra tətbiq olunacaqmı və hərtərəfli olacaqmı, yoxsa yalnız müəyyən sektorlara təsir edəcəkmi?

Nəhayət, Ukraynada davam edən münaqişə, Qəzza və Cənubi Çin dənizindəki gərginlik kimi məlum geosiyasi risklər səbəbindən qlobal iqtisadi mənzərə kövrək olaraq qalır. Bunların hər hansı birində eskalasiya daha yüksək inflyasiyaya və iqtisadiyyatın bərpasına mane olan faiz dərəcələrinin uzun müddət artmasına səbəb ola bilər.

**Ədəbiyyat:**


1. https://www.oecd.org/fr/about/news/press-releases/2024/12/economic-outlook-global-growth-to-remain-resilient-in-2025-and-2026-despite-significant-risks.html#
2. https://www.banquemondiale.org/fr/publication/global-economic-prospects
3. https://www.allianz-trade.com/fr_BE/actualites/dernieres-actualites/previsions-economiques-2025.html
4. Au FMI, Lagarde voit "des nuages plus sombres" se profiler sur la croissance mondiale. La Tribune. 11.04.2018.
5. https://www.imemo.ru/publications/policy-briefs/text/donald-trump-threatens-china-with-a-new-trade-war
6. https://russian.news.cn/20250111/590d3e24ef0c492ca8f13135c6ffb1a9/c.html

## THE CURRENT SITUATION IN THE WORLD ECONOMY: FORECASTS AND RISKS

**G.A. Khudaverdiyeva, A.E. Ibadzadeh, M.E. Babayeva**

**SUMMARY**

The end of the previous year and the beginning of the next is a traditional time for economic forecasts for the coming year. Leading global institutions and large companies are more or less close in their assessments. In general, they believe that global economic growth in 2025 and 2026 will remain stable, despite the risks. The thesis analyzes the reports of international organizations, and evaluates forecasts for the coming years.

## ТЕКУЩАЯ СИТУАЦИЯ В МИРОВОЙ ЭКОНОМИКЕ: ПРОГНОЗЫ И РИСКИ

**Г.А. Худавердиева, А.Э. Ибадзаде, М.Э. Бабаева**

**РЕЗЮМЕ**

Конец предыдущего и начало следующего года — традиционное время экономических прогнозов на предстоящий год. Ведущие мировые институты и крупные компании более или менее близки в своих оценках. В целом они полагают, что рост мировой экономики останется стабильным в 2025 и 2026 годах, несмотря на риски. В тезисе анализируются отчеты международных организаций и оцениваются прогнозы на ближайшие годы.

UOT № 339.94

# İQTİSADİYYATIN DİVERSİFİKASİYASININ VƏTƏNDAŞLARIN GƏLİRLƏRİNƏ TƏSİRİ

**H.M. Mirzəzadə, E.N. Şirəliyev, S.T. Hüseynova**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov küçəsi 13

e-mail: mirzezadehuseyn5@gmail.com , sebinehuseynova.t1@gmail.com

***Açar sözlər:*** iqtisadi diversifikasiya, iqtisadi artım, istehsal, kənd təsərrüfatı, sənaye

***Keywords:*** economic diversification, economic growth, production, agriculture, industry

***Ключевые слова:*** экономическая диверсификация, экономический рост, производство, сельское хозяйство, промышленность

Əhalinin sabit və artan gəlir səviyyəsi davamlı sosial-iqtisadi inkişafın əsas şərtlərindən biri hesab olunur. Neft-qaz kimi xammal ehtiyatlarına əsaslanan iqtisadiyyata malik ölkələrdə, o cümlədən Azərbaycanda, əhalinin gəlir səviyyəsi tez-tez xarici iqtisadi amillərin, xüsusilə də neft və qazın qiymətlərindəki dəyişmələrin təsiri altına düşür. Bu cür asılılıq milli iqtisadiyyatın xarici şoklara qarşı həssaslığını artırır və böhran dövrlərində vətəndaşların gəlirlərində azalmaya səbəb ola bilər.

İqtisadi təhlükəsizliyin təmin olunması və əhalinin rifah səviyyəsinin yüksəldilməsi zərurəti fonunda iqtisadiyyatın diversifikasiyası xüsusi aktuallıq kəsb edir. Resurslardan asılı modeldən sənaye, kənd təsərrüfatı, informasiya texnologiyaları və xidmət sahələri kimi sektorların inkişafına əsaslanan balanslaşdırılmış iqtisadi struktura keçid daxili artım mənbələrinin möhkəmləndirilməsinə, yeni iş yerlərinin yaradılmasına və gəlirlərin daha ədalətli bölgüsünə şərait yaradır.

Bu tədqiqatın məqsədi iqtisadiyyatın diversifikasiyası prosesləri ilə vətəndaşların gəlir səviyyəsi arasında qarşılıqlı əlaqənin müəyyən olunmasıdır. Tədqiqatın mərkəzində diversifikasiyanın məşğulluq strukturu, əmək məhsuldarlığı və ailə büdcələrinin maliyyə dayanıqlılığına təsir edən makroiqtisadi mexanizmlər dayanır. Təhlil Azərbaycan Respublikasında iqtisadi inkişafın cari tendensiyaları və rəsmi statistik göstəricilər əsasında aparılır.

İqtisadiyyatın diversifikasiyası əhalinin gəlirlərinin davamlı artımında mühüm rol oynayır. Belə ki, bu proses iqtisadiyyatın xammal sektoruna və xarici şoklara qarşı asılılığını azaldır, yeni iş yerlərinin yaradılmasına, vergi bazasının genişlənməsinə və yüksək texnoloji və istehsal sahələrinin inkişafına şərait yaradır ki, bu da ümumilikdə gəlirlərin sabitliyinə və səviyyəsinə müsbət təsir göstərir.

İqtisadiyyatın diversifikasiyası uzun müddətdir ki, makroiqtisadi sabitliyin təmin olunması və əhalinin yaşayış səviyyəsinin davamlı yüksəldilməsi üçün strateji vasitə kimi qiymətləndirilir. Lawrence, T.B., Dyck, B., Maitlis, S. and Mauws, M.K. tərəfindən aparılan tədqiqatlarda göstərilir ki, yeni istehsal sahələrinin və ixrac yönümlü fəaliyyətlərin inkişafı daha dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi strukturun formalaşmasına töhfə verir. Bu yanaşma xüsusilə xammal ixracından asılı ölkələr üçün aktualdır [1].

MDB məkanında və xüsusilə Azərbaycanda diversifikasiya məsələsi xüsusi əhəmiyyət daşıyır. Əliyev K. (2020) qeyd edir ki, neft sektorundan əldə olunan gəlirlərin yüksək olmasına

baxmayaraq, uzunmüddətli perspektivdə əhalinin gəlir səviyyəsinin artımı yalnız qeyri-neft sektorunun fəal inkişafı sayəsində mümkündür [2]. Tədqiqatlarda vurğulanır ki, məhz qeyri-neft sektoru iqtisadiyyatın sabitliyi və məşğulluğun təmin olunmasında əsas rol oynayır.

Barış T. [3] və Məmmədov E. [4] kimi müəlliflər uğurlu diversifikasiya strategiyasının həyata keçirilməsi üçün investisiya siyasəti ilə institusional islahatların vəhdətinin vacibliyini vurğulayırlar. Xüsusilə biznes mühitinin yaxşılaşdırılması, infrastrukturun inkişafı və kiçik və orta sahibkarlığın dəstəklənməsi əhalinin sabit və artan gəlir əldə etməsi imkanlarını genişləndirir.

Beləliklə, müasir elmi ədəbiyyat iqtisadiyyatın diversifikasiyası ilə vətəndaşların gəlir səviyyəsi arasında müsbət əlaqənin olduğunu təsdiqləyir və bu prosesin institusional, texnoloji və sosial amilləri nəzərə alan kompleks yanaşma tələb etdiyini vurğulayır.

Qlobal bazarlarda artan qeyri-müəyyənlik fonunda iqtisadiyyatın diversifikasiyası davamlı iqtisadi artımın və əhalinin gəlirlərinin artırılmasının əsas alətlərindən biri kimi qiymətləndirilir. Bu konsepsiyanın nəzəri əsasları ilk dəfə struktur iqtisadi dinamikanın klassik nümayəndələrindən biri olan Hirschman [5] tərəfindən irəli sürülmüşdür. O, istehsal sahələri arasında daxili əlaqələrin möhkəmləndirilməsinin və iqtisadi bazanın genişləndirilməsinin məşğulluğun və sabit gəlirlərin formalaşmasında mühüm əhəmiyyət daşıdığını vurğulamışdır.

Müasir tədqiqatlar göstərir ki, xammal ixracına yüksək dərəcədə bağlı olan ölkələrdə, o cümlədən Azərbaycanda, diversifikasiya iqtisadiyyatın xarici şoklara qarşı həssaslığını azaltmaqla yanaşı, əhalinin gəlirlərinin daha dayanıqlı mənbələrinin formalaşmasına da şərait yaradır [1-5]. Xüsusilə qeyri-neft sektorunun — sənaye, kənd təsərrüfatı, nəqliyyat və informasiya texnologiyalarının inkişafı milli gəlirin daha bərabər bölüşdürülməsinə və məşğulluğun artmasına imkan verir.

Əliyev K. iqtisadiyyatın diversifikasiyasının Azərbaycanda əhalinin real gəlir göstəriciləri ilə birbaşa əlaqəli olduğunu qeyd edir. Onun araşdırmalarında göstərilir ki, qeyri-neft sektorunun ÜDM-dəki payının artdığı dövrlərdə məşğulluğun, əməkhaqqının və kiçik sahibkarlığın inkişafında müsbət dinamika müşahidə olunur [2]. E. Məmmədovun [4] tədqiqatları da göstərir ki, dövlətin diversifikasiyaya yönəlik aktiv investisiya siyasəti əhalinin gəlir səviyyəsinin uzunmüddətli və dayanıqlı artımına gətirib çıxarır.

Xarici müəlliflər, həmçinin diversifikasiya prosesində institusional amillərin və insan kapitalının rolunu xüsusi qeyd edirlər. Lawrence, T.B., Dyck, B. [1] qeyd edir ki, uğurlu diversifikasiya yalnız sahibkarlıq və innovasiyaları təşviq edən səmərəli institutların, inkişaf etmiş təhsil və peşə hazırlığı sistemlərinin mövcudluğu şəraitində mümkündür.

Bu səbəbdən, müasir elmi ədəbiyyat iqtisadiyyatın diversifikasiyası ilə əhalinin gəlir səviyyəsi arasında güclü qarşılıqlı əlaqənin mövcudluğunu vurğulayır və bu prosesin kompleks yanaşma tələb etdiyini göstərir: istehsal potensialının artırılması, innovativ sahələrin dəstəklənməsi, biznes mühitinin yaxşılaşdırılması və institusional bazanın möhkəmləndirilməsi.

**Nəticələr**

- Tədqiqat göstərdi ki, iqtisadiyyatın diversifikasiyası vətəndaşların gəlir səviyyəsinə uzunmüddətli perspektivdə müsbət təsir göstərir. Qeyri-xammal sahələrinin inkişafı sabit iş yerlərinin və əməkhaqqı artımının təmin olunmasına şərait yaradır.
- Azərbaycanın neft-qaz sektorundan yüksək asılılığı əhalinin gəlirlərində xüsusilə xarici valyutada ciddi dəyişkənliklərə səbəb olur. Bununla belə, 2017–2023-cü illərdə qeyri-neft sektorunun inkişafı fonunda milli valyutada gəlirlərin sabit artımı müşahidə olunmuşdur.

- Əsas istehsal fondlarına qoyulan investisiyalar və daxili istehsalın artması diversifikasiyanın gəlirlərə təsir etdiyi əsas kanallardır. Bu təsir xüsusilə regionlarda kənd təsərrüfatı, emal sənayesi və turizm sahələrinin inkişafında özünü göstərir.
- Empirik məlumatlar və elmi ədəbiyyat sübut edir ki, əlverişli institusional mühit və dövlət dəstəyi şəraitində diversifikasiya əhalinin rifahının davamlı şəkildə yüksəlməsinə səbəb olur.

**Təkliflər**

- Sənaye, kənd təsərrüfatı, logistika və rəqəmsal iqtisadiyyat kimi qeyri-xammal sahələrinin inkişafını sürətləndirmək üçün struktur islahatlarının həyata keçirilməsi zəruridir.
- Xüsusilə işsizlik səviyyəsi və miqrasiya axını yüksək olan regionlarda əlavə dəyəri yüksək olan qeyri-neft sahələrinə hədəfli investisiyaların artırılması vacibdir.
- Yeni iqtisadi sahələr üçün peşə hazırlığı və kadrların inkişafı üzrə proqramların genişləndirilməsi məşğulluğu artırmaqla bərabər sabit gəlir mənbələri yaradacaqdır.
- İqtisadiyyatın diversifikasiyası siyasətinin həyata keçirilməsinə cavabdeh olan institutların şəffaflığını və effektivliyini artırmaq, regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət yetirmək tövsiyə olunur.
- Diversifikasiya tədbirlərinin əhalinin gəlirlərinə təsirini qiymətləndirmək üçün monitorinq və qiymətləndirmə sisteminin yaradılması məqsədəuyğundur.

## Ədəbiyyat:


1. Lawrence, T.B., Dyck, B., Maitlis, S. and Mauws, M.K. (2006). The underlying structure of continuous change. Sloan Management Review 47(4), 59-66.
2. Əliyev, K. (2020). Azərbaycanda diversifikasiya və qeyri-neft iqtisadi artımı: problemlər və perspektivlər. Bakı İqtisadi İcmalı, 18(2), 45–59.
3. Barış, T. (2020). Neftdən asılı olan iqtisadiyyatlarda iqtisadi diversifikasiya: Qafqazdan sübutlar. Mərkəzi Asiya İqtisadi İcmalı, 7(3), 21–34.
4. Məmmədov, E. (2021). Qeyri-neft sektoru və gəlirlərin davamlılığı: problemlər və perspektivlər. İqtisadiyyat və Sahibkarlıq, 5(126), 47–53.
5. Hirschman, A. (1958) The Strategy of Economic Development. Yale University Press, New Haven.


## IMPACT OF ECONOMIC DIVERSIFICATION ON CITIZENS' INCOME


**H.M. Mirzazadeh, E.N. Shiraliyev, S.T. Huseynova**


### SUMMARY


It should be noted that economic diversification is one of the main directions that determine the sustainable development of the country's economy in the long term. Therefore, conducting research in this direction is relevant. The main purpose of the research work is to investigate the impact of the economic diversification process on the income of the population. The research work used research methods such as logical generalization and scientific abstraction.

## ВЛИЯНИЕ ЭКОНОМИЧЕСКОЙ ДИВЕРСИФИКАЦИИ НА ДОХОДЫ ГРАЖДАН

**Х.М. Мирзазаде, Э.Н. Ширалиев, С.Т. Гусейнова**

### РЕЗЮМЕ

Следует отметить, что диверсификация экономики является одним из основных направлений, определяющих устойчивое развитие экономики страны в долгосрочной перспективе. По этой причине проведение исследований в этом направлении является актуальным. Основной целью исследования является изучение влияния процесса экономической диверсификации на доходы населения. В исследовательской работе использовались такие методы исследования, как логическое обобщение и научная абстракция.

UOT № 33

# ÇİN İQTİSADİYYATININ MÜASİR DURUMU VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**H.S. Şirinli, F.V. Cavadlı, M.R. Ağayev**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov küçəsi 13

e-mail: cavadlifidan190@gmail.com , magayev2002@gmail.com

***Açar sözlər:*** Çin, iqtisadi artım, bərabərsizlik, orta inkişaf səviyyəsi

***Keywords:*** China, economic growth, inequality, moderate level of development

***Ключевые слова:*** Китай, экономический рост, неравенство, средний уровень развития

## Giriş

Çinin son üç onillikdə iqtisadi artımına baxmayaraq, tətbiqi təhlil və nəzəri nəticələr üçün böyük bir sahə qalır. Ölkənin dünyada tədqiqat obyekti və inkişaf amili kimi əhəmiyyətini çox qiymətləndirmək mümkün deyil. Və müəyyən dərəcədə aydın olur ki , 1992-2023 - cü illərdə iqtisadi institutların, sənaye sahələrinin və regionların yaradılması ilə bağlı daxilqərarlar bütün proseslərə qətiyyətlə nəzarət edirdi. Əlbəttə ki, Çinin istehsal sənayesi məhsullarının ixracı, texnologiyalara çıxış və xammalın idxalı üçün dünyanın əlverişli şəraiti əsas əhəmiyyət kəsb edirdi, belə ki, onlar Çin ailəsinin rifahının artmasına ən başlanğıcdan 1,7 min dollar müsbət töhfə verdi. Bu fenomenal uğur, adətən, ya açıq dünya bazarı mühitində mərkəzləşdirilmiş planlaşdırma artımının uğurunu, ya da sadəcə olaraq ucuz işçi qüvvəsinin və böyük kapital qoyuluşlarının istifadəsini (köhnə resurs yanaşmaları üslubunda) və ya açıq institutların mütərəqqi təkamülünə, yəni institutların ölkədən çıxarılmasına, daha da yüksəlməsinə kredit vermək istənilir. Problemin xarakteri hər üç metodun arqumentlərinə açıqdır - çətin ki , hər bir metodun davamçıları bunun onların nəzəri metodu olduğunu iddia etmək qənaətinə gəlsinlər.

## Dünyada genişlənmə və Çində akselerasiya

2008-2010-cu illərdəki Dünya Maliyyə Böhranı, dünya idarəçiliyinin dağılması, Covid pandemiyası və geosiyasi böhranın başlanğıcından sonra baş verib. Qüdrətli Çin arzusu , Nobel mükafatı laureatı Robert Kouzun sözləri ilə desək, başqa vasitələrlə həyata keçirilir : "Bir neçə onilliklər ərzində islahatlar və açıqlıq siyasəti nəticəsində Çin mallar üçün bazar yarada bildi ki , bu da ölkəni yenidən iqtisadi rifaha apardı və xoşbəxt təsadüf nəticəsində ona öz mədəni köklərinə qayıtmağa imkan verdi." İdeyalar bazarının inkişafı Çin iqtisadiyyatının innovasiyalar və biliklər vasitəsilə böyüməsinə səbəb olacaq. Lakin ən əsası odur ki, Çinin zəngin ənənələri transformasiyanın çoxşaxəli müasir dünyaya inteqrasiyası sayəsində canlana biləcək . Bundan sonra Çin təkcə dünya sənaye mərkəzi deyil, həm də canlı yaradıcılıq və innovasiya mənbəyinə çevriləcək [1]. Biz inanırıq ki, indiki iqtisadiyyat və cəmiyyət Çin norması adlandırıla bilər .Yəni, Çin cəmiyyətinin (ehtimalın) Qərb standartlarına yaxınlaşmasını gözləməməyi təklif edirik. Düşünmək olar ki , ümumi ölkə nəhəng inkişaf

problemlərini həll edərək, öz normasını yaradır, aparıcı ölkələrlə bir çox parametrlər üzrə məsafəni daraldır . hibrid yanaşma - təsərrüfat subyektlərinin yüksək iqtisadi fəaliyyət azadlığının və planlaşdırmanın məqsədyönlü təsirinin məcmusudur.

İslahatlar axınının təşəbbüskarı olan bir ölkə üçün Çin yaxşı miqdarda yığılmış təhsilə, ənənəvi sahibkarlığa və əhalinin biznes etikasına malik idi. Buna ilkin olaraq hakimiyyətin inhisarını, qərarların qəbulu üzərində nəzarətin uzunömürlülüyünü və institutların sabitliyinin müəyyən təminatını (uğur olduqda) əlavə etmək mümkün idi . 1992-ci ilə qədər artıq xarici kapital, yəni azad iqtisadi zonalar vasitəsilə daxil olurdu və buna görə də texnologiyaların və nou-hauların transferi baş verirdi . Dünya bazarları SSRİ və MEE-də autarkiyanın açılması ilə liberallaşma dalğasına açıldı. Son "Birinci" Soyuq Müharibə və Sovet təhlükəsinin dağılması indiyədək ABŞ və NATO elitalarını Çin təhlükəsi qorxusundan məhrum etdi . Hər halda, adambaşına düşən ÜDM-i on minlərlə dollar olan “Qərb” o zaman təhlükəni hiss etmirdi və 2020-ci il ssenarisini , Rusiyanın tələblərini və Çinin məhdudiyyətlərini və dünyadakı dalana dirəndiyini təsəvvür edə bilmirdi . Çin liderləri bu “xarici imkan pəncərəsindən” iqtisadi həyatın , xüsusən də kənd yerlərində çox başa düşülən liberallaşdırılması və zənginləşməyə qarşı ideoloji qadağanın aradan qaldırılması üçün istifadə edirdilər . Dünyada 1990-cı illər - bu, böyük mülayimlik və sürətli artım illəridir - Çin istehsal sənayesindən ucuz məhsul kütləsinin ixracı üçün çox münasib vaxt idi. Nisbətən aşağı məhsuldarlıq səviyyəsindən başlayaraq , əhəmiyyətli mütləq yoxsulluq" əlində ", həddindən artıq tənzimləmə, planlaşdırma və məhdudiyyətlər dövründən başlayaraq , Çin rəhbərliyi mövcud vəziyyətdən çıxışın hibrid yollarını axtarırdı . O, mövcud resurslardan istifadə etməli, institusional məhdudiyyətləri aradan qaldırmalı və yeni institutlar paketinə məqbul ideoloji şərait yaratmalı idi.

**Yeni inkişaf modeli və proqnozlar**

"Son illərdə ÜDM artımının aşağı göstəricilərinə dönüş Çində"yeni normal" (mavi çanta) termini ilə əlaqələndirilir ki, bu da 2008-2009-cu illərdəki qlobal maliyyə böhranından sonra Çin iqtisadiyyatının inkişaf dinamikasında ləng dəyişiklikləri göstərir. 2014- cü ilin mayında Si Cinpin Çin iqtisadiyyatının "normal dövrə başlaması " zamanı ilk rəsmi açıqlamasını verdi . Henan əyalətinin [2] İqtisadçıların bu ifadənin Çin iqtisadiyyatının müasir reallığa tətbiqində nə demək olduğu barədə bir çox fərqli fikirlər var, bəziləri bunun daşınmaz əmlak bazarında mürəkkəb bir vəziyyət olduğunu düşünür, digərləri isə Çin və ABŞ arasında münasibətlərin normal olduğunu düşünürlər əhalinin azalması, "oturan" alıcılar ("yaşlanan" əhali) və cəsarətli işəgötürənlər (işsizliyin artması ) [3] . Asiya Bankının inkişafı ilə bağlı mühüm tədqiqatlar Çinin potensial artımının ümumi mənzərəsini verir [4]. Nəzəriyyələrin, statistik göstəricilərin, artımın hərəkətverici amillərinin geniş icmalı , rəqabətli proqnozlar ümumi gözlənilən nəticəni verir, çünki o, əsas kapitalın, əməyin artımı və ümumi amil məhsuldarlığının gözlənilən artımı əsasında hesablanır. Əsasən daşınmaz əmlak sektorundakı “böhran”ı müzakirə edən kütləvi informasiya vasitələrindən fərqli olaraq, bu hesabatda artım amilləri əsasında inkişafda müəyyən geriləmə proqnozlaşdırılır. 2030-cu ilə qədər artım templərini təqribən 3,5% və sonra 2035-ci ilə qədər proqnozlaşdırırlar. - 2,7 % səviyyəsində , baxmayaraq ki, bir sıra müəlliflər daha yüksək inkişaf

templərini təqdim edirlər. Müasir proqnozlaşdırmanın qəribə xüsusiyyəti Kobb-Duqlas funksiyasının və klassik artım nəzəriyyəsi üsullarının tətbiqidir . Amma inkişaf şuralarının əksəriyyəti institusional amillərdən danışır: dövlət müəssisələrinin rolunun azaldılması, kredit müddətinin uzadılması, kadr hazırlığının və insan kapitalının formalaşdırılması tədbirləri. Bütün inkişaf nailiyyətlərinə baxmayaraq, Çin hələ də orta inkişafa malik ölkədir və səmərəliliyin artırılması üçün çox əhəmiyyətli imkanlara malikdir.

Çin hökumətinin ümumi baxışı 2020-ci ilə qədərdir. O zaman Sədr Si Cinpin bildirmişdi ki, növbəti 16 ildə adambaşına düşən ÜDM-in iki dəfə artırılması 14 - cü beşillik planın (2021-2025) məqsədidir. Çinli iqtisadçı Castin Yifu Lin planlaşdırmanın əsasını belə yüksək optimist ifadələrlə ifadə etdi : adambaşına düşən ÜDM (PPS) 2019-cu ildə Çin üçün Amerika səviyyəsinin sadəcə 22,6% -i idi . 1946-cı ildə Almaniya, 1956-cı ildə Yaponiya, 1985-ci ildə Cənubi Koreya eyni səviyyədə idi. Növbəti 16 il ərzində bu ölkələrin illik artım templəri müvafiq olaraq 9,4%, 9,6% və 9% olmuşdur . Lin -in gəldiyi nəticə belə oldu ki , əhalinin artım tempinin aşağı olduğu və ABŞ - la texnoloji və ticarət müharibəsi şəraitində belə , Çinin potensial artım tempi 2019-2035 - ci illərdə 8% təşkil edir. və 2036-2050-ci illərdə 6%. - o, rəvan şəkildə müvafiq olaraq 6% və 4% faktiki illik artıma keçə bilər [5]. 2024- cü ilin mart ayında KPK liderləri 2024-cü ildə 5%-lik hədəf artım tempini elan etdilər. Göründüyü kimi, Çin müasir dünya standartlarına uyğun olaraq yüksək artım templərini qoruyub saxlayacaq , resursları və xüsusi tədbirləri artırmaqla tədricən yaranan problemləri həll etməyə çalışacaq . Biz artıq yüksək texnologiyalı sahələrə investisiyaların əhəmiyyətli dərəcədə artdığını görürük ki, Çin inkişaf etmiş ölkələrlə rəqabəti yeni səviyyədə davam etdirəcək.

**Nəticə**

ÇXR rəhbərliyi innovativ güc yaratmaq üçün iddialı məqsədlərə nail olmaqda insan potensialına əsas strateji resurs kimi baxır. Təhsil və elmə irimiqyaslı investisiyalar, Çin və xarici istedadların cəlb edilməsi və innovativ infrastrukturun yaradılması innovativ inkişaf üçün insan resurslarının yaradılmasına kömək edir.

Eyni zamanda, Çin də bu sahədə, ilk növbədə, xaricə beyin axını və regionlararası bərabərsizliklərlə bağlı ciddi problemlərlə üzləşir. Bu problemlərin aradan qaldırılması üçün Çin rəhbərliyindən daha da aktiv və innovativ yanaşmalar tələb olunacaq. Bura Çində əcnəbi mütəxəssislər üçün rahat iş şəraitinin yaradılması üçün miqrasiya siyasətinin daha da liberallaşdırılması, akademik mobilliyin və beynəlxalq elmi əməkdaşlığın təkmilləşdirilməsi, ölkənin daxili məkanında innovativ biznes üçün güzəşt və üstünlüklərin tətbiqi daxil ola bilər. Təhsil və innovativ sənayelərin ehtiyacları arasında əlaqənin gücləndirilməsi, o cümlədən yüksək texnologiya şirkətləri üçün tətbiqi bakalavr dərəcəsi sisteminin, peşə hazırlığının və korporativ universitetlərin inkişafı yolu ilə də mühüm sahə olmalıdır.

Daha geniş kontekstdə Çin təcrübəsi göstərir ki, yüksək keyfiyyətli insan kapitalına arxalanmadan effektiv innovativ inkişaf mümkün deyil. Müasir dünyada hər bir ölkənin innovativ potensialının və qlobal rəqabət qabiliyyətinin formalaşması üçün təhsilə, elmə, texnologiyaya, istedada qoyulan investisiyalar ilkin şərtdir. Eyni zamanda, milli innovasiya

sisteminin təkcə yeni bilik və texnologiyalar yaratmaq deyil, həm də onların iqtisadiyyatda sürətli tətbiqini təmin etmək, intellektual fəaliyyətin nəticələrinin kommersiyalaşdırılması üçün səmərəli mexanizmlər yaratmaq bacarığı əsas əhəmiyyət kəsb edir. Digər mühüm amil yaradıcılıq və sahibkarlıq üçün rahat ekosistemin, o cümlədən inkişaf etmiş infrastrukturun, əlverişli biznes mühitinin və innovasiya mədəniyyətinin olmasıdır. Nəhayət, insan potensialının inkişafı üçün onun bütün aspektlərini - məktəb təhsilindən tutmuş dünyanın ən yaxşı ağıllarının cəlb edilməsinə qədər hərtərəfli işlənmiş dövlət siyasəti böyük əhəmiyyət kəsb edir.

Tezisdə biz təkcə Çin iqtisadiyyatının inkişafının əsas məqamlarını, onun digər ölkələri ötmə məhdudiyyətlərini, bu cür inkişafın səbəblərini deyil , həm də inkişaf sürətinin mane olan bir sıra problemlərin strukturunu və institutların seçilmiş mexanizmlərini göstərdik. Əgər daha da irəliyə baxsanız, daha əhəmiyyətli bir müddət , onda ölkənin inkişaf etmiş səviyyəyə keçidi (ikinci klaster – 22 min dollardan PPP 2017) 35 min ABŞ dolları səviyyəsində əldə edilir. Bu da adambaşına 35 min dollara çatması deməkdir. Bu nəhəng nailiyyət olacaq və Çinin yeni nəsillərinə xoşbəxtlik, böyük ekoloji layihələr və bəşəriyyətin dünya problemlərinin həllində iştirak üçün nəhəng resurslar verəcək. İnkişaf nəzəriyyəsi nöqteyi-nəzərindən biz Çinin uğurunun düsturunu institusionalist şərtlərlə irəli sürməyə cəhd etməyəcəyik. Ölkənin inkişafı bazarın güclü tərəflərinin və mərkəzi planlaşdırmanın dominant rolunun kompleks qarışığında və orta inkişaf səviyyəsinə çatdıqdan sonra davam edir. Texniki cəhətdən biz inkişafı belə görürük: ya elm Çin təcrübəsinin inkişaf teoremlərinin ümumi mənada xaricində olduğunu etiraf edir, lakin ən böyük və ən maraqlı uğur hələ də Çin rəhbərliyinin özünəməxsus şansıdır . Yaxud elm müxtəlif vaxtlarda açıq bazar məsələlərində dövlət müdaxiləsinin oynadığı mühüm rolu başa düşməyə və Çin təcrübəsini əsas institusionalist ənənəyə uyğunlaşdırmağa çalışa bilər.

Gələcəyə daha uzun müddət baxsaq, bu, böyük uğur olacaq və Çin xalqının yeni nəsillərinə firavanlıq, böyük ekoloji layihələr və bəşəriyyətin qlobal problemlərinin həllində iştirak üçün böyük resurslar verəcək.

**Ədəbiyyat:**


1. Coase R., Wang N. (2016) Kak Kitai stal kapitalisticheskim [How China Became Capitalist]. Moscow: Novoe izdatelstvo (in Russian)
2. Ostrovskiy A. V. (2020) Kitai stanovitsya ekonomicheskoisverhderzhavoi [China Becomes an Economic Superpower]. Moscow: IBA. Available at: https://www.elibrary.ru/item.asp?id=44089369 (accessed 29 March 2024) (in Russian).
3. **The Economist (2023) How Economists Have Underestimated Chinese Consumption. 10 October. Available at: https://www.economist.com/finance-and-economics/2023/10/10/how-economists- have-underestimated-chinese-consumption (accessed 29 March 2024)**
4. **Peschel D., Liu W. (2022) The Long-Term Growth Prospects of the People's Republic of China. ADB East Asia Working Paper No 54, Asian Development Bank. Available at: https://dx.doi.org/10.22617/WPS220567-3**

5. **Fuxian Y. (2023) China's Economic Engine Is Running Out of Fuel. Project Syndicate, 22 December. Available at: https://www.project-syndicate.org/commentary/flawed-demographic- and-growth-forecasts-guide-chinese-economic-policy-by-yi-fuxian-2023**

## THE CURRENT STATE AND PROSPECTS FOR THE DEVELOPMENT OF THE CHINESE ECONOMY

**H.S. Shirinli, F.V. Javadli, M.R. Aghayev**

### SUMMARY

In thirty years, China has eliminated absolute poverty and achieved a moderate level of development. Along the way, it crossed borders in several clusters, passing through countries such as South Africa and Brazil. Success was based on the creation of market institutions, global market opportunities, and maintaining exceptionally high rates of GDP accumulation. High rates of change, demographic policies, and solving infrastructure problems have created certain difficulties. We will witness huge social inequality, environmental problems, growing family debt, and financial difficulties in the real estate market, which are largely the result of a large-scale social program. The country is going through standard stages, but more rapidly and uniquely. By 2035, China will be the first of the advanced countries, surpassing the countries of Southern and Eastern Europe in terms of modernity and achieving a higher level of development.

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ЭКОНОМИКИ КИТАЯ

**Х.С. Ширинли, Ф.В. Джавадлы, М.Р. Агаев**

### РЕЗЮМЕ

За тридцать лет Китай ликвидировал абсолютную нищету и достиг умеренного уровня развития. По пути он пересекал границы в нескольких кластерах, проходя через такие страны, как Южная Африка и Бразилия. Успех был основан на создании рыночных институтов, возможностях мирового рынка и поддержании исключительно высоких темпов накопления ВВП. Высокие темпы изменений, демографическая политика и решение инфраструктурных проблем создали определенные сложности. Мы станем свидетелями огромного социального неравенства, экологических проблем, растущей задолженности семей и финансовых трудностей на рынке недвижимости, которые во многом являются результатом масштабной социальной программы. Страна проходит стандартные этапы, но более стремительно и своеобразно. К 2035 году Китай станет первой из передовых стран, превзойдя по уровню современности страны Южной и Восточной Европы и достигнув более высокого уровня развития.

UOT № 33

# AZƏRBAYCANIN VALYUTA SİSTEMİ, MƏZƏNNƏ SİYASƏTİ VƏ VALYUTA EHTİYATLARININ İDARƏ EDİLMƏSİ

**İ.İ. Quliyev, E.Z. İbrahimov, K.K. Əliyeva**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov küçəsi 13

e-mail: guliev_ikram@mail.ru , elnur122245@gmail.com , konula172@gmail.com

***Açar sözlər:*** Maliyyə bazarı, maliyyə sistemi,milli gəlir, innovativ mərhələ

***Keywords:*** Financial market, financial system, national income, innovative stage

***Ключевые слова:*** Финансовый рынок, финансовая система, национальный доход, инновационная стадия

Maliyyə sistemi iqtisadi mexanizmin əsas dayaqlarından biri olmaqla, ümumi iqtisadi fəaliyyətin səmərəliliyini müəyyən edən mühüm amildir. Bu baxımdan, iqtisadiyyatın hərəkətverici qüvvəsi olan maliyyə ehtiyatlarının və alətlərinin düzgün istifadəsi, ölkənin dayanıqlı inkişafında həlledici rol oynayır.Bazar iqtisadiyyatı şəraitində maliyyə-kredit alətlərinin əhəmiyyəti getdikcə artır. Maliyyə və valyuta sistemləri, bazar mexanizminin effektiv və çevik işləməsini təmin edən başlıca struktur bölmələrdəndir. İqtisadiyyatın diversifikasiyası istiqamətində aparılan islahatlar, maliyyə-kredit sferasında da davamlı transformasiyalara səbəb olur. Bu proseslər, hökumət və təsərrüfat subyektlərinin maliyyə münasibətlərinin nəzəri və praktik əsaslarının dərindən öyrənilməsini zəruri edir. [1, s.325]

Bu mühitdə maliyyə sahəsində fəaliyyət göstərən mütəxəssislərin innovativ yanaşmalarla hazırlanması xüsusi aktuallıq kəsb edir. Belə yanaşmalar maliyyə elminə dair tədris resurslarının yenilənməsini və genişləndirilməsini şərtləndirir. Yeni nəslin müasir maliyyə əlaqələri sistemini kompleks şəkildə mənimsəməsi üçün bu tədris resursları əsas baza rolunu oynayır. Qloballaşma kontekstində beynəlxalq maliyyə münasibətlərində baş verən dəyişikliklər, maliyyə elminin də yenidən düşünülməsini və yeni metodoloji yanaşmaların tətbiqini tələb edir. Beləliklə, müasir mərhələdə maliyyə sahəsində formalaşan qlobal çağırışlar qarşısında ölkənin iqtisadi təhlükəsizliyinin və davamlı inkişafının təmin olunması üçün yüksək ixtisaslı, innovativ düşüncəyə malik mütəxəssislərin yetişdirilməsi mühüm əhəmiyyət daşıyır.[4, s.365]

Dövlət maliyyəsinin əsas funksiyası maliyyə resurslarının toplanması və bu vəsaitlərin dövlətin məqsədlərinə yönəldilməsindən ibarətdir. Dövlət gəlirləri dedikdə, dövlət büdcəsinin gəlirləri, dövlətə məxsus müəssisə və təşkilatların gəlirləri, habelə əhalinin vergi formasında ödədiyi gəlirlər başa düşülür. Son illərdə həyata keçirilən islahatlar çərçivəsində vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, şəffaflığın artırılması və sahibkarlıq fəaliyyətinin təşviqi kimi istiqamətlərdə mühüm irəliləyişlər əldə olunmuşdur.

Vergi siyasətinin təkmilləşdirilməsi nəticəsində malların vergitutma bazası genişləndirilmiş, mənzil tikintisi sektorunda vergi mexanizmlərinin təkmilləşdirilməsi və vergi nəzarətinin gücləndirilməsi məqsədilə hüquqi baza yenilənmişdir. Dövlət gəlirləri struktur baxımından mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş gəlirlərə bölünür. Mərkəzləşdirilmiş gəlirlərə büdcə daxilolmaları və xarici iqtisadi fəaliyyət nəticəsində əldə olunan gəlirlər daxildir. Mərkəzləşdirilməmiş gəlirlər isə əsasən dövlətə məxsus müəssisə və təşkilatların daxili ehtiyaclarının ödənilməsi üçün formalaşdırdığı vəsaitlərdən ibarətdir.[3, s.365]

Eyni zamanda, dövlət gəlirləri mənbə baxımından daxili və xarici mənşəli olur. Daxili mənbələrə milli gəlir, milli sərvət və digər daxili resurslar, xarici mənbələrə isə beynəlxalq kreditlər, borclar və digər maliyyə vasitələri aiddir.

Müasir iqtisadi şəraitdə dövlətin maliyyə müdaxiləsi gəlirlərin yenidən bölüşdürülməsi vasitəsilə həyata keçirilir. Bu isə makroiqtisadi sabitliyin qorunması, iqtisadi dövriyyənin təmin olunması və sosial ehtiyacların qarşılanması baxımından mühüm əhəmiyyət daşıyır. Büdcə sisteminin funksional rolu iqtisadiyyatın prioritet sahələrinin inkişafı, sosial təminatın gücləndirilməsi, ekoloji sabitliyin qorunması, elmi-texniki tərəqqi və milli müdafiə sahələrində mühüm layihələrin həyata keçirilməsi üçün maliyyə təminatının yaradılmasında özünü göstərir. [2]

Dövlətin iqtisadiyyatda iştirakını təmin edən maliyyə sistemi, eyni zamanda əhalidən və istehsalat bölmələrindən toplanan maliyyə vəsaitlərinin dövlət funksiyalarının icrasına yönəldilməsinə xidmət edən pul münasibətlərini ifadə edir. Bu münasibətlər sosial məhsulun bir hissəsinin yenidən bölüşdürülməsini təmin edir və beləliklə dövlətin sosial və iqtisadi funksiyalarını icra etməsinə şərait yaradır.

Maliyyə sistemi vasitəsilə resursların sosial təyinatlı çoxalma istiqamətində hərəkəti, dövlət aparatının fəaliyyətinin maliyyələşdirilməsi və dövlətin əməli funksiyalarını yerinə yetirməsi üçün zəruri olan vəsaitlərin səfərbər olunması təmin edilir. Bu proses tarixi inkişaf mərhələsindən asılı olaraq müxtəlif cəmiyyətlərdə müxtəlif formalarda həyata keçirilmiş, lakin hər zaman iqtisadi idarəetmənin əsas sütunlarından biri olmuşdur. [5, s.412]

### Ədəbiyyat:


1. Kərimli İ., (2016) Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri, Bakı, 325 səh.

2.Taylor, A. M. (2018). Globalization, Trade, and Development: Some Lessons From History. Cambridge, MA: National Bureau of Economic Research.

3. Əzizov V., (2012) “Beynəlxalq valyuta-maliyyə münasibətləri”. Bakı, 365 s.

4. Həsənov Ə., (2015) Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik, Bakı, 365 səh.

5. Sadıqov M.M, Balayeva E.A, Hamseyeva Ş., (2013) "Beynəlxalq valyuta- kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi". Bakı. 412


## AZERBAIJAN'S CURRENCY SYSTEM, EXCHANGE RATE POLICY AND FOREIGN EXCHANGE RESERVES MANAGEMENT

**I.I. Guliyev, E.Z. Ibrahimov, K.K. Aliyeva**

### SUMMARY

The redistribution of national income and gross domestic product is carried out at the expense of the state budget. In an economy based on the market mechanism, the government tries to carry out its economic and social functions by influencing state demand and aggregate supply through the distribution function of the general tax system. It should be noted that aggregate demand and aggregate supply are closely related to each other. In fact, the fluctuation in any of them directly affects the market equilibrium, and the other. As a result of the introduction of an effective and dynamic tax system, the state can accelerate its investments (the most acceptable option for economic growth)

# ВАЛЮТНАЯ СИСТЕМА АЗЕРБАЙДЖАНА, ПОЛИТИКА ОБМЕННОГО КУРСОВ И УПРАВЛЕНИЕ ВАЛЮТНЫМИ РЕЗЕРВАМИ

**И.И. Гулиев, Э.З. Ибрагимов, К.К. Алиева**

## РЕЗЮМЕ

Перераспределение национального дохода и валового внутреннего продукта осуществляется за счет государственного бюджета. В экономике, основанной на рыночном механизме, государство стремится выполнять свои экономические и социальные функции, влияя на общественный спрос и общее предложение через распределительную функцию общей налоговой системы. Следует отметить, что совокупный спрос и совокупное предложение тесно связаны друг с другом. Фактически, колебания любого из этих показателей напрямую влияют на рыночное равновесие и другого. В результате внедрения эффективной и динамичной налоговой системы государство может ускорить свои инвестиции (наиболее приемлемый вариант для экономического роста).

UOT № 339.33

# QLOBAL İQTİSADİYYATIN İNKİŞAF PROQNOZU

**K.M. Qəhrəmanov, B.X. Kərimova, A.O. Məmmədova**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov küçəsi 13

e-mail: gahramanovkenan.505@gmail.com , balabeyim.kerimova@bk.ru , aytacmammedova21@gmail.com

***Açar sözlər:*** qlobal iqtisadiyyat, artım yempi, alıcılıq qabiliyyəti, milli valyuta, ÜDM, Dünya Bankı, Betnəjxalq Valyuta Fondu.

***Keywords:*** global economy, growth rate, purchasing power, national currency, GDP, World Bank, International Monetary Fund

***Ключевые слова:*** мировая экономика, темпы роста, покупательная способность, национальная валюта, ВВП, Всемирный банк, Международный валютный фонд

2008-2009-cu illər böhranından sonra dünya iqtisadiyyatının inkişafı bir neçə əsas tendensiya ilə xarakterizə olunurdu [1].

Birincisi, dünya iqtisadiyyatının qloballaşma proseslərinin tədricən azalması dünya ticarətinin artım tempinin və onun əsasında əldə edilən gəlirlərin azalması ilə ifadə olunur.

İkincisi, ən iri inkişaf etməkdə olan ölkələrdə, xüsusilə Cənub-Şərqi Asiyada və Qlobal Cənubda baş verən proseslərin qlobal iqtisadi dinamikanın formalaşmasında əhəmiyyətinin artması.

Üçüncüsü, istehsalın səmərəliliyinin artım templərini saxlamaq üçün innovasiya sektoruna investisiyaların ümumi artımını tələb edən tədqiqat və hazırlamalara xərclərinin kapital tutumunun artması.

Dördüncüsü, ticarətdə tarif maneələrinin azaldılması gündəliyinin tədricən tükənməsi və bazarın qorunması siyasətinin qeyri-tarif həllər sahəsinə keçməsi.

Beşincisi, iri iqtisadiyyatı olan ölkələrdə böyümənin borc maliyyələşdirilməsi üzrə məhdudiyyətlərin artması.

Altıncısı, iri iqtisadiyyatı olan inkişaf etməkdə olan ölkələrdə artım potensialının daralması və bu ölkələrdə iqtisadi dinamikanın formalaşmasında struktur amilinin artan rolunun artması.

Dünya iqtisadiyyatının aktiv qloballaşması 30 ildən artıqdır ki, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr üçün inkişafın əsas amili olmuşdur [2]. Bu, istehsalın inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə hərəkətinə əsaslanan qlobal gəlir zəncirlərinin genişlənməsi və texnoloji rentanın monetizasiyası hesabına əldə edilən gəlirin çoxalması ilə səciyyələnirdi.

İnkişaf etməkdə olan ölkələr qabaqcıl istehsal texnologiyalarına çıxış əldə etdi, gəlirlərini artırdı və qlobal əmək bölgüsü proseslərinə fəal şəkildə daxil oldu [3].

Aparılan araşdırmalar onu deməyə əsas verir ki, qlobal iqtisadiyyat 2021-ci ildən başlayan artımı davam etdirərək 2025-ci ildə 3,3% artacaq. Təbii ki, 2025-ci ildəki artım tempi böhrandan sonrakı 6,3%-lik sürətli bərpadan xeyli aşağıdır. 2025-ci ildə dünyanın demək olar ki, bütün ölkələri böhranın nəticələrini aradan qaldıraraq 2019-cu ilin göstəricilərini üstələyib [4].

Demoqrafik baxımından dünya əhalisinin orta illik artım tempi azalmaqda davam edir və 2024-cü ildə əhalinin artım tempi 0,88% təşkil edib. Bu, 2022-ci ildəkindən bir qədər yüksəkdir – 0,8%, lakin 2021-ci ildən aşağıdır – 0,94%; yəni biz dünya əhalisinin artım tempinin azalması istiqamətində sabit tendensiya müşahidə edirik. Ona görə də əminliklə deyə bilərik ki, əhalinin artım tempi növbəti illərdə də azalmağa davam edəcək [5].

Qlobal iqtisadiyyat 3%-i keçən yüksək templə böyüməyə davam edir. Alıcılıq qabiliyyəti pariteti (PPP) ilə hesablanmış qlobal ÜDM-in həcmi 184,3 trilyon ABŞ dolları, milli valyutaların dollara orta illik məzənnələri əsasında hesablandıqda isə 105,7 trilyon ABŞ dolları təşkil etmişdir [3].

Qlobal iqtisadiyyatın strukturu dəyişir, inkişaf etmiş ölkələrin payı azalır və 2024-cü ildə 39,7% təşkil edib. Müvafiq olaraq, digər ölkələrin payı artıq 60,3% təşkil edir. Bu nisbət milli valyutaların ABŞ dollarına alıcılıq qabiliyyəti paritetləri hesablanarkən baş verir. Milli valyutaların dollara orta illik məzənnələri əsasında aparılan hesablamalara nəzər salsaq, onda 2024-cü ildə inkişaf etmiş ölkələrin qlobal iqtisadiyyatda payı 60,1%, digər ölkələrin payı isə 39,9% təşkil etmişdir [5].

2024 PPP statistik məlumatlari əsasında deyə bilərik ki, birinci yerde 34540.9 mlrd ABŞ doları ilə Çin, ikinci yerdə 2720.7 mlrd ABŞ dollari ilə ABŞ, 3-cü yerdə 14619.8 mlrd ABŞ dolları ilə Hindistan, ücüncü yerdə 6512.1 mlrd ABŞ dolları ilə Rusiya gəlir və 239,6 mlrd ABŞ dollar ilə Azərbaycan 73-cü yeri tutur [6].

Bu məlumatlar 2024-cü il üçün Beynəlxalq Müqayisə Proqramının növbəti mərhələsi üzrə işlərin başa çatdırılması nəticəsində əldə edilib. Onlar 2025-ci il əvvəlində dərc edilib və BVF və Dünya Bankının nəşrlərində nəzərə alınıb.

Adambaşına düşən ÜDM (PPP 2024) baxımından isə nəticələr xeyli fərqlidir. Belə ki, birinci yerde 148657 ABŞ dolları ilə Lüksemburq , ikinci yerdə 141545 ABŞ dolları ilə Cinqapur, üçüncü yerdə 126986 ABŞ doları ilə İrlandiya 23661 ABŞ dolları ilə isə Azərbaycan 75 -ci yerdə gəlir[7].

BVF-nin 2025-2029-cu illər üçün proqnozuna əsasən. qlobal iqtisadiyyat orta illik artımı 3,2% olaraq artacaq. Hesablamalarımıza görə, Azərbaycan iqtisadiyyatı eyni dövrdə 2,5-2,7% artacaq, yəni. Azərbaycan iqtisadiyyatının inkişafında əhəmiyyətli dəyişikliklər olmasa, onun qlobal iqtisadiyyatdakı payı azalacaq.

2024-cü ildə Çin iqtisadiyyatı 34,540,9 milyard dollara çataraq 5.3% artmış və dünya üzrə PPP üzrə ÜDM-un 18,7%-ni təşkil etmişdir. (PPP 2024). Beləliklə, Cin iqtisadiyyatı Amerika iqtisadiyyatının səviyyəsini - 27,720,7 milyard dollar, yaxud - 24,6% üstələmişdir Bu dövr ərzində Azərbaycan iqtisadiyyatı 239,6 mlrd ABŞ dolları iəşkil etməkıə 1.1% artmış və PPP üzrə ÜDM-də payı 0.13% təşkil etmişdir [8].

Milli valyutaların dollara olan orta illik məzənnələri ilə ÜDM-in hesablamalarından belə nəticə çıxır ki, ABŞ – 27 720,7 milyard dollar təşkil etmişdir. Dünyanın ikinci ən böyük iqtisadiyyatı Çin isə – 17758,0 milyard dollardan böyük fərqlə liderliyini qoruyub saxlamişdır. Çinin ÜDM-i ABŞ səviyyəsinin 64,1%-ni təşkil edir.

## Ədəbiyyat:

1. M. Orucov. “Milli iqtisadiyyatın müasir inkişaf modeli” OYU. Ped.xəb.№54,
2. İbrahimova S.R. Diversification of economy the Republics Azerbaijan on the base sustainable development of non-oil sector, XIV international scientific conference. Toronto. Canada. 14-15.11.2024
3. M.M. Orucov. New trends and challenges to the global economy, XIV international scientific conference. Stokholm. Sweden. 21-22.01.2025,
4. M.M. Orucov Mechanisms of international financial relations in the conditions of the globalization crisis, I international scientific conference. Lisbon. Portugal. 22-25. 2025
5. Orucov M.M. Azerbaijani economy during Ilham Aliyev's presidency: a long way traveled in 20 years, Scientific and Pedagogical News of Odlar Yurdu University, 2023, № 63
6. Orucov M.M. Parameters for long-term forecasting of the world economy, Scientific and Pedagogical News of Odlar Yurdu University, 2023, № 63
7. Orucov M.M. Global dynamics of socially responsible investing (SRI): analysis motivating MNCS to use SRI strategies. XVIII international scientific conference. Madrid. Spain. 25-26.03.2025.
8. Orucov M.M. Forecast of global economy development, I international scientific conference. Marseille. France. 20-21.02.2025

## GLOBAL ECONOMIC GROWTH FORECAST

**K.M. Gahramanov, B.Kh. Karimova, A.O. Mammadova**

### SUMMARY

In the article, the main attention is paid to the parameters of the long-term forecast of the world economy. The article analyzes the development of the economy of developed and developing countries in the long-term perspective. In 2024, the economy of Azerbaijan continued to grow against the background of complex processes in the world economy, demonstrating stability and sustainability. Realized economic reforms allowed to respond adequately to risks and problems in the field of economic security of the country. The article provides forecasts for the development of the global economy based on the research.

## ПРОГНОЗ РОСТА ГЛОБАЛЬНОЙ ЭКОНОМИКИ

**К.М. Гахраманов, Б.Х. Каримова, А.О. Мамедова**

### РЕЗЮМЕ

В статье основное внимание уделяется параметрам долгосрочного прогноза мировой экономики. В статье анализируется развития экономики развитых и развивающихся стран на долгосрочном перспективе. В 2024 году экономика Азербайджана продолжала расти на фоне сложных процессов в мировой экономике, демонстрируя стабильность и устойчивость. Реализованные экономические реформы позволили адекватно реагировать на риски и проблемы в сфере экономической безопасности страны. В статье на основе исследования даны прогнозы развития мировой экономики

UOT № 33

# BEYNƏLXALQ TİCARƏT SİSTEMİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATININ YAŞIL TRANSFORMASİYASI

**K.X. Hüseynov, F.Ə. İbrahimov, A.Ş. Abbasova**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov küçəsi 13

e-mail: huseynovkamran090@gmail.com , ibrahimovferrux447@gmail.com , a.abbasova@atmu.edu.az

***Açar sözlər:*** yaşıl iqtisadiyyat, beynəlxalq ticarət, bərpa olunan enerji, dayanıqlı inkişaf

***Keywords****:* green economy, international trade, renewable energy, sustainable development

***Ключевые слова:*** зеленая экономика, международная торговля, возобновляемая энергия, устойчивое развитие

## Giriş

Beynəlxalq ticarət isə ölkələr arasında mal, xidmət, texnologiya və kapital axınının təşkili ilə bağlı kompleks iqtisadi münasibətlər sistemidir. Son illərdə beynəlxalq ticarət sistemində də yaşıl iqtisadiyyat prinsiplərinin tətbiqi artmaqdadır. Belə ki, bir çox dövlətlər və beynəlxalq təşkilatlar ekoloji cəhətdən təmiz məhsulların ticarətini təşviq edir, karbon emissiyalarını azaltmaq məqsədilə yeni standartlar və rüsum mexanizmləri tətbiq edirlər. Bu baxımdan yaşıl iqtisadiyyat və beynəlxalq ticarət anlayışları bir-birini tamamlayan və qarşılıqlı təsir göstərən iki əsas sahə kimi çıxış edir. Davamlı ticarət, yalnız iqtisadi mənfəət deyil, həm də ekoloji və sosial dəyərləri qoruyan bir sistem olaraq formalaşır. BMT Ətraf Mühit Proqramının hesabatına görə, yaşıl iqtisadiyyat yalnız ekoloji sabitlik deyil, həm də yoxsulluğun azaldılması üçün mühüm bir mexanizmdir [4]

## Tədqiqatın məqsədi və əsas istiqamətləri

Bu tədqiqatın əsas məqsədi, Azərbaycan iqtisadiyyatında yaşıl transformasiyanın beynəlxalq ticarət sistemi kontekstində necə inkişaf etdiyini təhlil etmək, bu prosesin əsas prioritetlərini müəyyənləşdirmək və perspektiv istiqamətləri əsaslandırmaqdır. Yaşıl iqtisadiyyat anlayışının qlobal ticarət münasibətlərində artan rolu nəzərə alınaraq, Azərbaycanın da bu tendensiyaya uyğun mövqe tutması zəruridir. Ölkənin iqtisadi strategiyalarının və ixrac siyasətinin ekoloji dayanıqlılıqla uzlaşdırılması araşdırmanın mərkəzində dayanır.

Tədqiqat çərçivəsində bir neçə əsas istiqamət müəyyən olunmuşdur. Birinci istiqamət – yaşıl iqtisadiyyat və beynəlxalq ticarət anlayışlarının qarşılıqlı əlaqələrinin nəzəri əsaslarının öyrənilməsidir. İkinci istiqamət – Azərbaycanın mövcud iqtisadi və ekoloji potensialının qiymətləndirilməsi və yaşıl ticarət imkanlarının analizi ilə bağlıdır. Üçüncü istiqamət – bərpa olunan enerji, karbon emissiyalarının azaldılması və “yaşıl zona” konsepsiyasının beynəlxalq ticarətə təsirinin araşdırılmasıdır. Enerji iqtisadi inkişafın mərkəzində dayanır [1]. Dördüncü istiqamət isə beynəlxalq təşkilatlarla əməkdaşlıq və texnologiya transferi vasitəsilə ölkənin ticarət siyasətində yaşıl transformasiyanın tətbiqidir. Bu istiqamətlər əsasında Azərbaycanın davamlı və ekoloji baxımdan məsuliyyətli ticarət modelinin qurulması imkanları əsaslandırılır.

**Ətraf mühitin qorunması və ekoloji risklər**

Ətraf mühitin qorunması müasir dövrdə qlobal iqtisadiyyatın və beynəlxalq siyasətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. İqlim dəyişiklikləri, hava və su çirklənməsi, torpaqların deqradasiyası və bioloji müxtəlifliyin azalması kimi ekoloji problemlər təkcə milli deyil, həm də beynəlxalq səviyyədə ciddi risklər doğurur. Bu risklər iqtisadiyyatların dayanıqlığına birbaşa təsir göstərir və təbii resurslara əsaslanan ölkələr üçün əlavə təzyiqlər yaradır. Xüsusilə ticarətə inteqrasiya olunmuş ölkələr üçün ekoloji standartlara cavab verməmək, ixrac imkanlarının məhdudlaşmasına və beynəlxalq rəqabət qabiliyyətinin zəifləməsinə səbəb ola bilər. Azərbaycan da qlobal ekoloji çağırışlara cavab olaraq bir sıra strateji addımlar atmaqdadır. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər' sənədində ətraf mühitin mühafizəsi və yaşıl inkişaf xüsusi strateji istiqamət kimi qeyd olunur [5]. Bununla yanaşı, beynəlxalq ticarət sisteminə inteqrasiya prosesində də ekoloji amillərin nəzərə alınması zəruridir. Ətraf mühitin qorunması, ölkənin iqtisadi inkişaf modelində davamlılıq prinsiplərinin möhkəmlənməsi və ticarətdə yaşıl transformasiyanın əsasını təşkil edir.

**Enerji səmərəliliyi və resursların dayanıqlı istifadəsi**

Enerji səmərəliliyi və resursların dayanıqlı istifadəsi müasir iqtisadiyyatın strateji komponentlərindəndir. Ənənəvi enerji mənbələrinin tükənməsi və onların ətraf mühitə mənfi təsirləri dünya ölkələrini alternativ və bərpa olunan enerji mənbələrinə keçidə təşviq edir. Eyni zamanda, mövcud enerji resurslarının daha az itki ilə istifadəsi və texnoloji modernləşmə bu keçidin əsas istiqamətlərindəndir. Səmərəli enerji istifadəsi yalnız ekoloji deyil, həm də iqtisadi baxımdan faydalıdır. Bu, istehsal xərclərini azaldır, ixrac rəqabətliliyini artırır və resurs asılılığını zəiflədir.

Azərbaycan enerji resursları baxımından zəngin ölkə olsa da, dayanıqlı inkişaf məqsədlərinə uyğun olaraq enerji səmərəliliyi sahəsində ardıcıl islahatlar aparır. UNDP-nin 2023-cü il hesabatında qeyd olunur ki, Azərbaycan bərpa olunan enerji sahəsində irəliləyişlər əldə etmiş və enerji səmərəliliyi sahəsində milli siyasətini gücləndirmişdir [7]. .Bu kontekstdə "yaşıl enerji zonaları"nın yaradılması, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa olunan enerji layihələrinin reallaşdırılması xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, sənaye, nəqliyyat və məişət sektorlarında enerjiyə qənaət edən texnologiyaların tətbiqi genişləndirilir. Resursların dayanıqlı istifadəsi beynəlxalq ticarətdə ekoloji standartlara uyğun məhsul istehsalına imkan yaradır ki, bu da ölkənin ixrac potensialının keyfiyyətcə yenilənməsi üçün baza rolunu oynayır. OECD-nin araşdırmalarına əsasən, ticarətdə yaşıl standartlara keçid üçün institusional və texniki baryerlərin aradan qaldırılması dayanıqlı inkişafın sürətləndirilməsi baxımından vacibdir [6]

**İqlim dəyişikliyi ilə bağlı beynəlxalq razılaşmalar və Azərbaycanın öhdəlikləri**

İqlim dəyişikliyi XXI əsrin ən ciddi qlobal çağırışlarından biridir. Bununla mübarizə məqsədilə müxtəlif beynəlxalq razılaşmalar qəbul edilmişdir ki, onların arasında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC), Kyoto Protokolu və Paris Sazişi xüsusi yer tutur. Bu sənədlər ölkələrin karbon emissiyalarını azaltmaq, bərpa olunan enerji mənbələrinə keçid etmək və ətraf mühitin qorunması üzrə öhdəliklər götürməsini nəzərdə tutur.

Azərbaycan 1995-ci ildən etibarən UNFCCC-nin, 2000-ci ildən isə Kyoto Protokolunun iştirakçısıdır. 2016-cı ildə ölkə Paris Sazişini ratifikasiya etmiş və 2030-cu ilə qədər istixana qazı

emissiyalarını 35% azaltmağı hədəflədiyini bəyan etmişdir. Bu öhdəliklər ölkənin ticarət və iqtisadi siyasətinə də təsir göstərir. Belə ki, ekoloji göstəricilərin yaxşılaşdırılması və enerji səmərəliliyi üzrə tədbirlər, həm daxili, həm də ixrac bazarlarında rəqabət üstünlüyü yaradır. Azərbaycanın bu razılaşmalar çərçivəsində gördüyü işlər – "yaşıl zona" layihələri, alternativ enerji sahəsinə investisiyalar, ekoloji monitorinq sistemləri – beynəlxalq ictimaiyyətin diqqətini cəlb edir. Sərmayələr ölkələrin davamlı inkişafının əsasını təşkil edir [2]. Bu isə ölkənin ticarət tərəfdaşları ilə daha dərin və dayanıqlı əməkdaşlıq qurması üçün əlverişli zəmin yaradır.

**Avropa İttifaqı, BMT və digər beynəlxalq qurumlarla əməkdaşlıq**

Azərbaycan, yaşıl iqtisadiyyatın inkişafı və beynəlxalq ticarət sistemində rəqabətliliyini artırmaq məqsədilə Avropa İttifaqı, BMT və digər beynəlxalq qurumlarla fəal əməkdaşlıq edir. Bu əməkdaşlıq, əsasən, ekoloji dayanıqlılıq, bərpa olunan enerji və təmiz texnologiyaların təşviqi sahələrində həyata keçirilir. Avropa İttifaqı ilə tərəfdaşlıq, Azərbaycanın ekoloji standartlara uyğun istehsal və ixracatını artırmağa, eləcə də ətraf mühitin qorunmasına yönələn layihələrin həyata keçirilməsinə şərait yaradır.

BMT-nin İnkişaf Proqramı (UNDP) və digər beynəlxalq təşkilatlar ilə əməkdaşlıq, Azərbaycanın davamlı inkişaf strategiyalarına uyğun layihələrin maliyyələşdirilməsi və həyata keçirilməsi üçün mühüm rol oynayır. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası çərçivəsində Azərbaycanın öhdəlikləri, ölkənin beynəlxalq aləmdə yaşıl transformasiya prosesinə uyğun hərəkət etməsini təmin edir. Eyni zamanda, müxtəlif beynəlxalq fondlardan maliyyə dəstəyi alaraq, yaşıl iqtisadiyyat sahəsində innovativ həllərin tətbiqi genişlənir. Bu əməkdaşlıq nəticəsində, Azərbaycan beynəlxalq standartlara uyğun olaraq, ticarət sahəsində yeni imkanlar əldə edir və eyni zamanda, qlobal ekoloji məqsədlərə töhfə verir.

**Azərbaycanın beynəlxalq ticarətdə yaşıl transformasiya prosesində mövqeyi**

Azərbaycan beynəlxalq ticarət sahəsində yaşıl transformasiyanın əsas iştirakçılarından birinə çevrilmək məqsədini güdür. Son illər, Azərbaycanın iqtisadi siyasəti yaşıl iqtisadiyyatın prinsiplərinə uyğun olaraq tərtib olunur. Bununla yanaşı, beynəlxalq ticarət əlaqələri də ekoloji cəhətdən məsuliyyətli yanaşmaların tətbiqinə uyğunlaşır. Xüsusilə Avropa İttifaqı ilə müasir ticarət əlaqələrində ətraf mühitin qorunması və yaşıl texnologiyaların tətbiqi əsas prioritetlərdəndir. Azərbaycan, beynəlxalq ticarət müstəvisində yaşıl iqtisadiyyatın əsas prinsiplərinə riayət edərək, qeyri-neft ixracının artırılması, bərpa olunan enerji və təmiz texnologiyaların tətbiqi sahəsində ciddi addımlar atır. Avropa Yaşıl Sazişi çərçivəsində ekoloji cəhətdən dayanıqlı istehsal və ticarətin təşviqi Avropa İttifaqının əsas strateji prioritetlərindən birinə çevrilmişdir [3]. İqlim dəyişikliyi ilə mübarizə və ekoloji təhlükəsizlik prinsiplərinə riayət edərək, ölkə öz enerji təminatını diversifikasiya edir, enerji istehsalında daha çox təmiz və bərpa olunan mənbələrə yönəlir. Bu istiqamətdə atılan addımlar, Azərbaycanın dünya bazarında yaşıl iqtisadiyyat sahəsində daha güclü mövqe tutmasına imkan yaradır. Həmçinin, Azərbaycan, qlobal yaşıl bazarda iqtisadi tərəfdaşlarının tələblərinə uyğun məhsullar təqdim edərək, beynəlxalq ticarətdə davamlı inkişafı təmin etməyə çalışır.

**Nəticə**

Azərbaycanın yaşıl ixrac potensialının artırılması üçün bir neçə perspektiv addımın atılması zəruridir. İlk növbədə, bərpa olunan enerji mənbələrindən istehsal olunan məhsulların, xüsusilə elektrik enerjisinin, xarici bazarlara ixracı genişləndirilməlidir. Qarabağ və Şərqi

Zəngəzurda bərpa olunan enerji layihələrinin reallaşdırılması, bu bölgələrdə istehsal olunan təmiz enerjinin ixracını mümkün edəcəkdir. Eyni zamanda, yaşıl texnologiyalar və ekoloji cəhətdən təmiz məhsulların istehsalı artırılmalıdır.

İkinci addım, yaşıl sertifikatlaşdırma və ekologiya standartlarına uyğun məhsul istehsalının təşviqi olmalıdır. Dünya bazarında ekoloji məhsullara tələbat artdıqca, Azərbaycan bu məhsulların istehsalı üçün müvafiq sertifikasiyalar almalı və beynəlxalq bazarda yaşıl məhsulun mövqeyini gücləndirməlidir. Məsələn, ekoloji təmiz kənd təsərrüfatı məhsulları, təkrar emal edilmiş materiallardan hazırlanmış məhsullar və bərpa olunan enerji texnologiyalarının ixracı bu istiqamətdə potensialı genişləndirə bilər.

Üçüncü olaraq, yaşıl iqtisadiyyat sahəsində beynəlxalq əməkdaşlıq gücləndirilməlidir. Xüsusilə Avropa İttifaqı və digər qabaqcıl ölkələrlə yaşıl texnologiyaların və innovasiyaların mübadiləsi, ölkənin ticarət rəqabətini artıracaq və beynəlxalq bazarlarda yaşıl məhsul ixracını stimullaşdıracaqdır. Bu addımlar, Azərbaycanın yaşıl ixrac potensialını artırmaqla yanaşı, qlobal dayanıqlı inkişaf məqsədlərinə də müsbət təsir göstərəcəkdir.

## Ədəbiyyat:


1. Mammadov, E., Valiyev, A., Azimzadeh, A., Feizullaev, B., Aliyeva, A., Nazarov, V. (2024). The Potential and Challenges of Alternative Energy in Azerbaijan: A Current Assessment. In: Mammadov, F.S., Aliev, R.A., Kacprzyk, J., Pedrycz, W. (eds) International Conference on Smart Environment and Green Technologies – ICSEGT2024. ICSEGT 2024. Lecture Notes in Networks and Systems, vol 1252. Springer, Cham. https://doi.org/10.1007/978-3-031-81564-5_49

2. Guliyeva, A., Rzayeva, U., & Azimzadeh, A.: Navigating Investment Risks in the Renewable Energy Market of Developing Countries: Efficiency vs. Effectiveness. In: Özel Özcan, M.S. (eds) Analyzing Energy Crises and the Impact of Country Policies on the World. IGI Global Scientific Publishing. https://doi.org/10.4018/979-8-3693-0440-2.ch004

3. European Commission. (2020). *The European Green Deal*. Brussels: European Union. Retrieved from https://ec.europa.eu/info/strategy/priorities-2019-2024/european-green-deal_en

4. UNEP. (2011). Towards a green economy: Pathways to sustainable development and poverty eradication. United Nations Environment Programme. Retrieved from https://www.unep.org/resources/report/towards-green-economy

5. Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. (2022). Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər və icra mexanizmləri. Bakı: SAM.

6. OECD. (2022). Green trade and investment: Removing barriers to support sustainable development. OECD Publishing. https://doi.org/10.1787/green-trade-2022-en

7. United Nations Development Programme (UNDP). (2023). Sustainable energy for all: Azerbaijan country progress report. UNDP Azerbaijan. Retrieved from https://www.undp.org/azerbaijan/publications/sustainable-energy-report-2023

## GREEN TRANSFORMATION OF THE AZERBAIJAN ECONOMY IN THE INTERNATIONAL TRADE SYSTEM

**K.Kh. Huseynov, F.A. Ibrahimov, A.Sh. Abbasova**

### SUMMARY

Green economy is an economic model that, alongside ensuring economic growth, focuses on environmental protection, efficient use of natural resources, and the enhancement of social welfare. This concept not only involves changing production and consumption habits but also affects the structure of economic policies, state investments, and trade relations. The main goal of the green economy is to optimize the use of current resources without jeopardizing the needs of future generations and to ensure sustainable development.

## ЗЕЛЕНАЯ ТРАНСФОРМАЦИЯ АЗЕРБАЙДЖАНСКОЙ ЭКОНОМИКИ В СИСТЕМЕ МЕЖДУНАРОДНОЙ ТОРГОВЛИ

**К. Х. Гусейнов, Ф.А. Ибрагимов, А.Ш. Аббасова**

### РЕЗЮМЕ

Зеленая экономика – это экономическая модель, которая, наряду с обеспечением экономического роста, сосредотачивается на охране окружающей среды, эффективном использовании природных ресурсов и повышении социального благосостояния. Это понятие не ограничивается только изменением производственных и потребительских привычек, но также влияет на структуру экономической политики, государственных инвестиций и торговых отношений. Основная цель зеленой экономики – оптимизация использования текущих ресурсов без угрозы для потребностей будущих поколений и обеспечение устойчивого развития.

UOT № 33

# MÜASİR İQTİSADİYYATDA İNVESTİSİYALAR

**M.Z. Əlizadə, K.G. Nəsibov, S.V. Şaliyev**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov küçəsi 13

e-mail: magaalizade03@gmail.com , nesibov.vip19@gmail.com , shaliyev110@gmail.com

***Açar sözlər:*** iqtisadi artım, infilyasiya, məşğulluq, ÜDM, pul-kredit siyasəti

***Keywords:*** economic growth, inflation, employment, GDP, monetary policy

***Ключевые слова:*** экономический рост, инфляция, занятость, ВВП, денежно-кредитная политика

İnvestisiyaların ölkə iqtisadiyyatındakı rolu son dərəcə böyükdür. Müəssisələrin əsas fondlarının və istehsal potensialının formalaşdırılmasını təmin etməklə, investisiyalar müəssisələrin cari və perspektiv fəaliyyət nəticələrinə birbaşa təsir göstərir. Lakin investisiyalaşdırma səmərəli formalarda həyata keçirilməlidir, çünki mənəvi baxımdan köhnəlmiş istehsal vasitələri və texnologiyalara vəsait qoyuluşu müsbət iqtisadi nəticə verməyəcəkdir. İnvestisiyaların qeyri-rasional istifadəsi resursların dondurulmasına və istehsal olunan məhsul həcminin azalmasına gətirib çıxarır. Beləliklə, investisiyalardan istifadə effektivliyi mikro səviyyədə bütövlükdə iqtisadiyyat üçün mühüm əhəmiyyət kəsb edir; investisiyaların həcminin artırılması onların effektivliyi müəyyən səviyyəyə çatmadan davamlı iqtisadi artıma gətirib çıxarmır.

**İnvestisiya** anlayışı altında, vəsaitin dəyərini qorumaq və (və ya) artırmaq, habelə müsbət gəlir əldə etmək məqsədilə maliyyə vəsaitlərinin yerləşdirilə biləcəyi istənilən alət nəzərdə tutulur [1, səh 10].

Bazar iqtisadiyyatında iqtisadiyyata yönəldiləcək investisiyaların həcmi əsasən kapital və maliyyə aktivlərinin gəlirlilik (mənfəətlilik) səviyyəsindən asılı olur. Dövlətin investisiya fəaliyyətinin tənzimlənməsində iştirakı aşağıdakı şəkildə özünü göstərir:

- Dövlət sistemyaradıcı amil kimi çıxış edir, çünki o, bütün investisiya prosesinin iştirakçıları üçün vahid olan normativ-hüquqi bazanı formalaşdırır. Bu, real layihələrin həyata keçirilməsini də əhatə edir.
- Dövlət həmçinin investisiya fəaliyyətinin birbaşa subyekti kimi çıxış edir – o, büdcə vəsaitlərini birbaşa investorlar arasında müsabiqə əsasında ayırır. Burada nəzərə almaq lazımdır ki, dövlətin real layihələrin maliyyələşdirilməsinə yönəltdiyi investisiyalarla bağlı əsas məqsədi maksimum mənfəət əldə etmək deyil. Dövlət investisiya qərarlarını qəbul edərkən kommersiya təşkilatlarının real layihələrin səmərəliliyini qiymətləndirərkən rəhbər tutduqları meyarlardan fərqli prinsiplərlə hərəkət edir (məsələn, investisiyaların maksimum sosial və ekoloji səmərəliliyinin təmin olunması və s.).

Dövlət investisiya məhsulları bazarında investorların davranış strategiyasını, eləcə də dövlət investisiyalarının həcmini və strukturunu müəyyən edir. İqtisadiyyatın vəziyyətindən – inflyasiya səviyyəsi, büdcə sistemindəki kəsir, istehsalın strukturu, əhalinin mal və xidmətlərə

olan ödəmə qabiliyyətli tələbi və digər amillərdən asılı olaraq investisiya məhsulları bazarının tənzimlənməsində müxtəlif konsepsiyalardan istifadə olunur.

Bəzi tədqiqatçılar, investisiyaları makroiqtisadi səviyyədə "iqtisadi sistemdə fəaliyyət göstərən kapitalın həcminin artması" kimi xarakterizə edirlər [2, səh 15-20].

Bununla belə, istənilən konsepsiya iki səviyyəli məqsədyönlü yanaşma əsasında formalaşır:

1. Son məqsədlər – ümumi daxili məhsulun (ÜDM) artımı, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, inflyasiya tempinin illik 3–6%-dək azaldılması kimi hədəfləri əhatə edir;
2. Aralıq məqsədlər – kapitala olan tələbat və təklifin nisbəti, kredit resurslarına görə faiz dərəcələri, pul kütləsinin dinamikası və digər göstəricilərdən ibarətdir.

Son (strateji) məqsədlər konkret maliyyə və pul-kredit siyasəti formalarının istehsalata təsir dərəcəsini müəyyənləşdirir.

Aralıq məqsədlər isə maliyyə və pul-kredit sahələrində resurslara olan tələbatla təklif arasında tarazlığın tənzimlənməsi üçün istiqamətləndirici kimi çıxış edir.

Hər hansı bir ölkənin iqtisadiyyatına investisiyalar həm yerli, həm də xarici dövlətlər və vətəndaşlar tərəfindən həyata keçirilə bilər. İnkişaf edən iqtisadiyyatın əsas göstəricilərindən biri əhalidən əldə olunan bank əmanətlərinin yüksək faiz nisbətidir. Bu, əhalinin öz yığımlarını dövlətə etibar etməsi və bununla da ümumilikdə iqtisadiyyatın inkişafını stimullaşdırması deməkdir. Xarici investorlar tərəfindən ölkəyə cəlb olunan investisiyaların rolu isə xüsusilə qiymətsizdir. Məlum olduğu kimi, xarici investisiyalar daxili investisiyaların artımına təkan verə bilər. Bu, xüsusilə birbaşa investisiyalarla bağlıdır – belə hallarda iqtisadiyyata yalnız maliyyə vəsaiti deyil, həm də investor şirkətlərin illər boyu bazarda topladıqları təcrübə daxil olur.

İnvestisiyalar mikroiqtisadi səviyyədə gələcəkdə mənfəət əldə etmək məqsədilə təsərrüfat fəaliyyətinə vəsaitlərin yatırılması, makroiqtisadi səviyyədə isə ümumi daxili məhsulun (ÜDM) həcminin artırılmasına yönəlmiş və təsərrüfat fəaliyyətində səmərəli şəkildə istifadə olunan xərclərdir [3].

Xarici investisiyaların artımı ölkələrarası iqtisadi qarşılıqlı əlaqələrin güclənməsinə səbəb olur ki, bu da əməkdaşlığın yeni üfüqlərindən və ölkələr arasında münasibətlərin möhkəmlənməsindən xəbər verir. İnvestisiya fəaliyyətində istənilən investorun əsas məqsədi investisiyalardan gəlir əldə etməkdir. İqtisadiyyat nə qədər səmərəli fəaliyyət göstərirsə, investorlar üçün bir o qədər cəlbedici olur. Bu, xüsusilə iqtisadi və maliyyə vəsaiti, həmçinin təcrübə çatışmazlığı səbəbindən müəyyən iqtisadi vəzifələri yerinə yetirməkdə çətinlik çəkən inkişaf etməkdə olan ölkələr üçün mühüm əhəmiyyət daşıyır. Belə ölkələrdə investisiyaların iqtisadiyyatdakı rolu heç bir halda kiçildilə bilməz. Eyni zamanda nəzərə almaq lazımdır ki, investora onun məqsəd və imkanlarına uyğun optimal investisiya istiqamətlərini sərbəst seçmək imkanı da verilməlidir.

Beləliklə, investisiya anlayışı çoxsəviyyəli və mürəkkəb xarakter daşıyır. İnvestisiyalar müxtəlif amillərin təsirinə məruz qalır və onların həcminin artırılması, eləcə də effektivliyinin yüksəldilməsi — iqtisadiyyatın bütün xüsusiyyətlərini əhatə edən çətin bir prosesdir. Bu xüsusiyyətlərə iqtisadi, siyasi və sosial sferalar daxildir. İnvestisiyaların inkişaf etdirilməsi məsələsində dövlət qarşısında əsas məsələ, iqtisadiyyatın bütün bu xüsusiyyətlərinin ideal balansını taparaq investorları cəlb etməkdir. İnvestisiyalar iqtisadiyyata bilavasitə təsir göstərir

— onların axını iqtisadiyyatı “canlandırır”, yeni artım nöqtələri yaradır, halbuki investisiya çatışmazlığı iqtisadiyyata mənfi təsir göstərir: iqtisadi artım templəri zəifləyir, əhalinin həyat səviyyəsi aşağı düşür.

### Ədəbiyyat:


1. Доронина Н. Г., Семилютина Н. Г. Государство и регулирование инвестиций. М., 2003. 272 с.
2. Крутик А. Б., Никольская Е. Г. Инвестиции и экономический рост предпринимательства; Лань - М., 2017. - 544 с.
3. Косов, Н. С. Макроэкономический механизм активизации инвестиционного процесса в России. Н.С. Косов - М.: Высшая школа, 2001. - 358 с


## INVESTMENTS IN THE MODERN ECONOMY


**M.Z. Alizadeh, K.G. Nasibov, S.V. Shaliyev**


### SUMMARY


In the modern era, the economic development of countries is impossible without the implementation of investment activities. Ensuring sustainable economic growth is one of the key priorities facing national economies. Investments are among the fundamental factors that have a direct impact on economic growth. The dynamics of investment exert a significant influence on the performance of various industries and sectors, the volume of gross domestic product, as well as on the issue of unemployment. At the same time, investments—being long-term capital allocations into the economy—serve as one of the primary drivers of structural transformation.


## ИНВЕСТИЦИИ В СОВРЕМЕННУЮ ЭКОНОМИКУ


**М.З. Ализаде, К.Г. Насибов, С.В. Шалиев**


### РЕЗЮМЕ


В современную эпоху экономическое развитие стран невозможно без осуществления инвестиционной деятельности. Одной из приоритетных задач, стоящих перед национальными экономиками, является обеспечение устойчивого экономического роста. Инвестиции являются одним из ключевых факторов, оказывающих непосредственное влияние на экономический рост. Динамика инвестиций оказывает прямое воздействие на деятельность различных отраслей и секторов экономики, объем валового внутреннего продукта, а также на проблему безработицы. В то же время инвестиции, представляя собой долгосрочные вложения капитала в экономику, выступают в качестве одного из основных факторов, формирующих структурные преобразования.

UOT № 33

# ƏHALİNİN MALİYYƏ SAVADLILIĞI: AZƏRBAYCANDA VƏZİYYƏT VƏ MAARİFLƏNDİRMƏ STRATEGİYALARI

**N.İ. Həsənov, F.T. Əsədzadə, K.R. Bağırov**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: hasanov_neriman@mail.ru , feridesedov28@gmail.com , kenan.baghirov@mail.ru

***Açar sözlər:*** maliyyə savadlılığı, iqtisadi inkişaf, fərdi rifah, davamlı inkişafın əsası, təlim proqramları, statistik göstəricilər
***Keywords:*** financial literacy, economic development, personal well-being, the basis of sustainable development, training programs, statistical indicators
